

## YAP-ın VII qurultayı Azərbaycanın ictimai-siyasi həyatında yeni mərhələnin başlanğıcı oldu

3

Səs
№ 042 (6483) 5 mart 2022-ci il. Qiymәti 60 qәpik

# Prezidentin əmək pensiyaçılarına edilən maddi yardımla bağlı SƏRƏNCAMI



Azərbaycan Prezidenti İlham Əliyev Əmək pensiyasına qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında sərəncam imzalayıb.Sərəncamda deyilir:

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

1.1. 2022-ci il yanvarın 1-dək pensiya təyin edilmiş qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına 2022-ci ildə aylıq əmək pensiyası məbləğinin (qulluq stajına görə əlavələr nəzərə alınmaqla) 10 faizi məbləğində aylıq maddi yardımın hər ay onların pensiyasının məbləği ilə birlikdə ödənilməsini təmin etsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maddi yardımın 2023-cü il yanvarın 1-dən etibarən onun şamil edildiyi əmək pensiyaçılarının pensiyaları-nın tərkibinə daxil edilməsinə dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maddi yardımın dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi üçün zəruri tədbirlər görsün;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Sərəncamın 1-ci hissəsi 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

# Böyük strateq, qalib Azərbaycan - qlobal dünya reallığında!



8

*Sirr deyil ki, çağdaş dövrümüz müxtəlif təlatümlərlə, çoxsaylı ictimai-siyasi hadisələrlə, dövlətlərarası münasibətlərdə yaranan bu və ya digər şəkildəki müsbət və mənfi yanaşmaları ilə zənginləşməkdədir. Dünyanın müxtəlif nöqtələrində bir-birini tez-tez əvəzləyən hadisələr hər gün yenisi ilə əvəzlənir və tüğyan edir. İqtisadi rəqabətlərdən tutmuş müharibələrə qədər hər şey kifayət qədər sürətlə çətin dövrümüzdə bu və ya digər şəkildə öz sirayətlərini göstərir. Müasir və qlobal dünyamızdakı cərəyan edən elə hadisələr də yaşanır ki, bu hadisələr dünya düzəninin yenilənməsi, yaxud xəritələrin, sərhədlərin dəyişilməsi ilə də nəticəsini tapır - diktə edənlər diktə olunanlara çevrilir, böyük güclər zəif sandıqları kiçik güclər qarşısından geri çəkilməli olurlar.*

## Ceyhun Bayramov Priti Sinha ilə görüşüb



2

*Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Kapitalın İnkişafı Fondunun (UNCDF) icraçı katibi Priti Sinha ilə görüşüb.Xarici İşlər Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Ceyhun Bayramov Azərbaycanın BMT-nin müxtəlif institutları ilə münasibətlərin inkişafına yüksək önəm verdiyini qeyd edib.*

## 5 Mart Azərbaycanda Bədən Tərbiyəsi və İdman Günüdür




7

*5 Mart Azərbaycanda Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd olunur. Bu tarix Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Bədən tərbiyəsi və idman günü"nün təsis edilməsi haqqında 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən qeyd edilir.*

## Çavuşoğlu Azərbaycana gəlib



2

## Qadınlar cənnətdir, cənnətinizi əldən verməyin



10

*Bir qadını ortadan ikiyə bölsək, yarısı ana, yarısı uşaq, yarısı sevgili, yarısı da eşqdir. Təəssüf ki, bunu çox insan anlamır və ya anlamaq istəmir.*

## Dünyaca məşhur müğənnini məhkəməyə verdilər



16

Dünyaca məşhur müğənni Dua Lipa plagiat etməkdə ittiham olunur.

## Soros "SƏS"in ifşalarına davam gətirə bilmədi!

14

*mart 2022-ci il tarixində SİA-da Corc Sorosun nəzarətində olan USAİD-in və birbaşa onun tabeçiliyində olan Şərq-Qərb İdarəetmə...*

## Çürük dişlər XƏRÇƏNG yaradır?



16

*Çürük dişlər həzm sistemi xəstəlikləri-nə, hətta xərçəngə səbəb ola bilər. Bu barədə diş həkimi, Rusiya Diş Dərnəyinin fəxri prezidenti Vladimir Sadovski məlumat verib.*

## Naxçıvan Qarnizonu Qoşunlarında komandir hazırlığı məşğələləri keçirilib



Komandir heyətinin bilik, bacarıq və vərdişlərinin təkmilləşdirilməsinin diqqət mərkəzində saxlanıldığı Naxçıvan Qarnizonu Qoşunlarında tabor, divizion komandirləri və müavinləri ilə komandir hazırlığı məşğələləri keçirilib. Bu barədə Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən SİA-ya məlumat verilib.

"Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planı"na əsasən keçirilən komandir hazırlığı məşğələlərində əsas diqqət zabitlərin bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirilməsinə və keçirilən tədbirlərin təşkilinə yaradıcılıqla yanaşılmasında özünəinam hissinin aşılanmasına yönəldilib.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirli-







yinin Mülki Müdafiə Alayında və Xüsusi Riskli Xilasetmə Xidmətində keçirilən məşğələlərdə yanğınsöndürmə avtomobillərinin və yanğın-texniki avadanlıqlarının, xilasedici qayıqların və digər vasitələrin taktiki-texniki xüsusiyyətləri, istismar qaydaları, texniki xidmət və təmiri haqqında, xilasedici dalğıclar qrupunun dalğıc avadanlıqlarından istifadəsi qaydaları barədə məlumat verilib.

Qəzaların aradan qaldırılması, yanğınların aşkar edilməsi və söndürülməsi, şəxsi heyətin, silah və texnikanın, əmlakın mühafizəsi və təhlükəsiz təxliyyəsi üzrə keçirilən məşğələlər zamanı beynəlxalq təlimlərdə qazanılan təcrübənin tətbiqi ilə axtarış-xilasetmə, qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması ardıcıllığı, qayda və üsulları praktiki olaraq göstərilib.

Tabor, divizion komandirləri və müavinləri ilə keçirilən komandir hazırlığı məşğələlərində Vətən Müharibəsi zamanı qazanılmış təcrübəyə əsasən taktiki-sıra məşğələlərinin təşkili və hazırlanması metodikası göstərilib, əməliyyat-taktiki hesablamaların aparılmasının qoşunların fəaliyyətinin planlaşdırılmasında və qərarın qəbul edilməsində vacibliyi qeyd edilib. Müasir tank texnikalarının gecə və gündüz şəraitində döyüşdə tətbiqi ilə minalı sahələrdən və maneələrdən keçməklə şərti düşmənin atəş zərbələrindən qorunması və atəş tapşırıqlarını yerinə yetirməsi praktiki olaraq göstərilib. Birləşmə, hissə və bölmələrin maddi-texniki vasitələrlə təmin edilməsi ilə yanaşı döyüş sahəsindən və təbii maneələrdən zədələnmiş texnikanın təxliyəsi, yenidən istifadəyə hazır vəziyyətə gətirilməsi və təmir emalatxanalarının fəaliyyəti sualları işlənilib.

Məşğələlərin yekununda zabitlərin məşğələ və təlimlərin keçirilməsi üzrə hazırlıqlarında müsbət nəticələr əldə edildiyi, qarşıya qoyulmuş məqsədlərə nail olunduğu vurğulanaraq bölmələrin döyüş hazırlığının yüksəldilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

# Ceyhun Bayramov Priti Sinha ilə görüşüb



***Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Kapitalın İnkişafı Fondunun (UNCDF) icraçı katibi Priti Sinha ilə görüşüb.Xarici İşlər Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Ceyhun Bayramov Azərbaycanın BMT-nin müxtəlif institutları ilə münasibətlərin inkişafına yüksək önəm verdiyini qeyd edib.***

Ölkəmizin BMT-nin Kapitalın İnkişafı Fondu ilə əməkdaşlıq imkanlarını dəyərləndirməyə hazır olduğu vurğulanıb.Nazir Ceyhun Bayramov Azərbaycanın müstəqilliyinin ilk illərində işğal faktoru ilə üzləşdiyini, nəticədə dünyada əhalisinin sayına nisbətdə ən çox məcburi köçkün olan ölkəyə çevrildiyini diqqətə çatdırıb. Azərbaycanın əvvəllər yardım alan ölkədən, bu gün beynəlxalq birliyin məsuliyyətli üzvü kimi donor ölkəyə çevrildiyini vurğulayıb.

Ceyhun Bayramov pandemiya dövründə 80 ölkəyə Azərbaycan tərəfindən COVID-19 pandemiyası ilə mübarizə istiqamətində yardımların göstərildiyini bildirib. Nazir, həmçinin Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı daxilində edilən yardımlar, ötən həftə Ukraynaya göndərilən humanitar yardım barədə danışıb.Priti Sinha regiondakı hazırki vəziyyət, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan dövləti tərəfindən aparılan böyük həcmli bərpa və yenidənqurma işləri barədə məlumatlandırılıb və bu xüsusda BMT-nin Kapitalın İnkişafı Fondu ilə əməkdaşlıqda maraqlı olduğumuz ifadə edilib.

BMT-nin Kapitalın İnkişafı Fondunun icraçı katibi xanım Priti Sinha səmimi qəbula görə təşəkkürünü bildirib və ölkəmizi müstəqilliyin 30 illiyi, eləcə də BMT ilə münasibətlərin qurulmasının 30 illiyi münasibətilə təbriklərini çatdırıb.

O, təmsil etdiyi təşkilatın missiyası, beynəlxalq miqyasda həyata keçirdiyi layihələr, ölkəmizlə əməkdaşlıq perspektivləri barədə danışıb və təşkilatın dünyanın 46 ölkəsi ilə əməkdaşlıq etdiyini və bu ölkələrə müxtəlif istiqamətlərdə, o cümlədən yerli infrastrukturun, kiçik və orta sahibkarlığın inkişafı, rəqəmsal inkişaf və s. sahələrində yardımlar etdiyini deyib.Azərbaycanla Fond arasında qarşılıqlı faydalı əməkdaşlığın qurulmasında maraq ifadə edilib.Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Hərbi Akademiyada Pakistanın nümayəndə heyəti ilə görüş keçirilib



Martın 4-də Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Hərbi Dəniz Qüvvələri Akademiyasının rəisi kontr-admiral Şifaat Ali Xanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Pakistan əlaqələrinin yüksələn xətlə inkişaf etməsindən məmnunluq ifadə olunub, hərbi təhsil sahəsində ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə edilib.Qonaqlara Azərbaycanda hərbi təhsil sistemi haqqında brifinq təqdim olunub.Sonda xatirə fotosu çəkilib, nümayəndə heyətinin Xalça Muzeyinə və İncəsənət Muzeyinə ekskursiyası təşkil edilib.

## Çavuşoğlu Azərbaycana gəlib



Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Azərbaycana səfərə gəlib. SİA-nın xəbərinə görə, o, bu barədə "Tvitter"də bildirib. Türkiyəli naziri Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov qarşılayıb.

"Brüsseldə Ukraynaya həsr olunmuş NATO Xarici İşlər Nazirlərinin fövqəladə iclasından sonra əlaqələrimizi və regional hadisələri müzakirə etmək üçün can Azərbaycandayıq", - deyə Türkiyə XİN başçısı qeyd edib.

# YAP-ın VII qurultayı Azərbaycanın ictimai-siyasi həyatında yeni mərhələnin başlanğıcı oldu



*Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov*

**- Azərbaycan dünyada islahatçı ölkə kimi tanınır. Xüsusilə də, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər bütün sahələri əhatə edən genişmiqyaslı islahatlara start verilib. Yeni Azərbaycan Partiyası da bu prosesdən kənarda qalmayıb. Bu baxımdan, partiyanın bir il əvvəl - 5 mart 2021-ci il tarixdə keçirilmiş VII qurultayında qəbul edilmiş qərarlar və ondan sonra həyata keçirilən tədbirlər diqqəti cəlb edir. Bu barədə nə deyə bilərsiniz?**

- Tamamilə haqlısınız, Azərbaycan dünyanın mötəbər araşdırma mərkəzlərinin tədqiqatlarında və nüfuzlu reytinq təşkilatlarının hesabatlarında islahatçı ölkə kimi dəyərləndirilir. Təbii ki, ayrı-ayrı sahələrin inkişafını və bütövlükdə milli tərəqqini təmin edən islahatlar kursu dövlətimizin gücünün artmasını, yeniləşməni və müasirləşməni təmin edən çox mühüm amillərdən biridir. Bu strateji kurs müasir çağırışlara, milli maraqlara və ictimai-siyasi münasibətlərin mahiyyətinə, xarakterinə tam adekvatdır. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar kompleks xarakter daşıyır, ardıcıl və məqsədyönlüdür. Dövlət başçısının islahatlar kursu Azərbaycanın bugünkü inkişafını təmin, gələcək strateji hədəflərinin gerçəkləşməsini isə mümkün edən faktorlardandır.

Ümumiyyətlə, yeni nəsil islahatlar kursunun və milli inkişafın Azərbaycan modelinin müəllifi olan Prezident İlham Əliyev dünyada innovativ baxışlara, kreativ siyasi düşüncəyə malik, modern idarəetmə sistemi yaradan lider kimi tanınır. Dövlət başçısının siyasətinin proqressiv nəticələri özünü bütün sahələrin inkişafına nail olunmasında göstərir. Sistemli və çoxşaxəli səciyyə daşıyan institusional, kadr və struktur islahatları idarəetmənin səmərəliliyi və çevikliyinin artmasını təmin etməklə yanaşı, vətəndaş məmnunluğuna, xalq-iqtidar birliyinin, milli həmrəyliyin gücləndirilməsinə xidmət göstərir. Bu, XXI əsrin üçüncü onilliyinə Azərbaycanın müasir tendensiyalara və siyasi trendlərə cavab verən suveren ölkə kimi irəliləməsini - milli hədəfləri reallaşdırmasını təmin edir.

Razılaşarsınız ki, çoxşaxəli reformalardan bəhs edərkən siyasi islahatların əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. İslahatlar nəticəsində yeni siyasi konfiqurasiyanın formalaşması, siyasi dialoq prosesinin dərinləşdirilməsi, yeni siyasi partiyaların qeydiyyatdan keçməsi, vətəndaş cəmiyyəti təsisatının inkişafına xidmət edən addımların atılması həm Azərbaycanın mühüm prioritetləri reallaşdırmasına, həm də milli həmrəyliyin gücləndirilməsinə təkan verib.

Xüsusi vurğulamaq istəyirəm ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində möhtəşəm qələbənin qazanılmasından, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpasından sonra Azərbaycanın qarşısında yeni çağırışlar meydana çıxıb. Yeni dövrün reallıqlarına uyğun olaraq siyasi inkişafa xidmət edən islahatların aparılması, sosial-iqtisadi yüksəlişin davamlılığının təmin olunması, milli birliyin, Azərbaycanın beynəlxalq arenada və qlobal informasiya müstəvisində mövqeyinin daha da gücləndirilməsi, Böyük Qayıdışın - layiqli və dayanıqlı məskunlaşmanın həyata keçirilməsi, tarixi Qələbənin nəticələrinin möhkəmləndirilməsi və digər milli məqsədlər strateji prioritetlər kimi müəyyənləşdirilib. Təbii ki, hakim və alternativsiz siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasının da bu istiqamətdə üzərinə mühüm vəzifələr və ictimai-siyasi məsuliyyət düşür. Qeyd etdiyiniz kimi, bir il əvvəl - 5 mart 2021-ci il tarixdə islahatlar kursunun tərkib hissəsi kimi və yeni dövrdə milli vəzifələrin reallaşdırılması zərurəti ilə əlaqədar partiyamızın VII qurultayı keçirilib.

Ümumiyyətlə, tarixi Zəfərdən sonra istər ölkədə, istərsə də beynəlxalq müstəvidə yaranmış yeni reallıqlar fonunda keçirilmiş YAP-ın VII qurultayı partiyamızın və ölkəmizin inkişafında yeni mərhələnin əsasını qoyub. Qurultayda qəbul edilən qərarlar partiyamızın inkişafı və müasir çağırışlara cavab verməsi - ictimai-siyasi öhdəlikləri layiqincə yerinə yetirməsi üçün olduqca əhəmiyyətlidir.

İlk növbədə qeyd edim ki, partiyanın yeni Nizamnaməsinin təsdiq edilməsi fəaliyyətin yeni yol xəritəsinin müxtəlif istiqamətlərinin müəyyənləşdirilməsi baxımından önəmlidir. Bilirsiniz ki, partiyanın Nizamnaməsinin qəbul olunmasından xeyli müddət keçmişdi. Bu müddət ərəfəsində ölkədə və beynəlxalq aləmdə mühüm dəyişikliklər baş verib, o cümlədən Yeni Azərbaycan Partiyası əhəmiyyətli uğurlar qazanıb, yeni çağırışlar və vəzifələr meydana çıxıb. Ona görə də yeni Nizamnamənin qəbulu, partiya fəaliyyətinin tənzimlənməsində yeni mexanizmlərin müəyyənləşdirilməsi vacib idi və VII qurultayda bu istiqamətdə önəmli qərar verildi.

Bunlarla yanaşı, YAP-ın İdarə Heyətinin, Təftiş Komissiyasının, Gənclər Birliyinin yenidən formalaşdırılması, Veteranlar Şurasının təsis edilməsi də partiya idarəetməsində yeni mərhələnin başlanmasıdır. Digər tərəfdən, 6 siyasi partiyanın YAP-a qoşulmasına dair qərar qəbul edilməsi partiyamızın yüksək nüfuzunun, inam və etimad ünvanı olmasının daha bir nümunəsi - əyani ifadəsidir. Bu fakt həm də siyasi birlik və milli həmrəylik örnəyi, yeni siyasi mədəniyyət nümunəsi kimi diqqətəlayiqdir.

Bir məqama da toxunmaq istəyirəm. Bilirsiniz ki, VII qurultaydan sonra Mehriban xanım Əliyeva partiya Sədrinin birinci müavini təyin edilmişdir. Sirr deyil ki, Mehriban xanım Əliyevanın milli inkişafa xidmət edən çoxşaxəli fəaliyyətinin mühüm tərəflərindən birini Yeni Azərbaycan Partiyasının Sədrinin müavini statusunda gördüyü işlər təşkil edir. Bu, dövlətçilik maraqlarının qorunması və milli həmrəyliyin gücləndirilməsi baxımından çox böyük əhəmiyyətə malikdir. Reallıqlar deməyə əsas verir ki, Mehriban xanım Əliyevanın YAP Sədrinin birinci müavini kimi fəaliyyəti bundan sonra da qurucusu Ümummilli Liderimiz Heydər Əliyev olan YAP-ın yeni nailiyyətlər əldə edərək öz nüfuzunu daha da artırması, Azərbaycanın sürətli və hərtərəfli inkişafına davamlı töhfə verməsi baxımından əlamətdar olacaq.

Bütövlükdə isə, qurultayda partiyamızın Sədri, dövlət başçısı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulmuş, eləcə də yuxarıda bəhs olunan strateji prioritetlərdən irəli gələn vəzifələrin ardıcıl və məqsədyönlü şəkildə yerinə yetirilməsi Azərbaycanın yeni dönəmdə davamlı uğurlar əldə etməsinə yeni imkanlar, dayanıqlı, etibarlı və möhkəm zəmin yaradacaqdır.

**- Bəs VII qurultaydan keçən müddət ərzində hansı təşkilati işlər görülüb?**

- YAP-ın VII qurultayında müəyyən olunmuş əsas vəzifələrdən biri də partiya strukturunun yenilənməsi və fəaliyyətin səmərəliliyinin artırılması üçün təşkilati işlərin həyata keçirilməsi oldu. Partiyamızda təşkilatlanma prosesi müxtəlif istiqamətlər üzrə aparılır. İlk növbədə qarşıda duran vəzifələrə uyğun olaraq YAP-ın fəaliyyətinin institusional əsaslarının gücləndirilməsi, normativ hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində işlər görülür. Yeni Azərbaycan Partiyasında uçot sisteminin təkmilləşdirilməsi üçün müvafiq addımlar atılıb və bu istiqamətdə iş davam etdirilir. Partiyada bütün üzvlərin fərdi uçot sisteminin müasir standartlara, informasiya-kommunikasiya texnologiyalarının bugünkü inkişaf mərhələsinə uyğun qurulmasına nail olunacaq.

Bununla yanaşı, VII qurultaydan ötən zaman müddətində YAP İdarə Heyətinin bir sıra iclasları keçirilib və təşkilatlanma, kadr və struktur dəyişiklikləri baxımından mühüm qərarlar qəbul olunub.

2021-ci il sentyabr ayının 10-da keçirilmiş YAP İdarə Heyətinin iclasında partiyanın Veteranlar Şurasının, Gənclər Birliyinin, Mərkəzi Aparatının və yerli təşkilatlarının əsasnamələrinin təsdiq edilməsi haqqında məsələyə baxılıb, hər bir əsasnamə ayrı-ayrılıqda müzakirəyə çıxarılaraq təsdiq olunub.

Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsinə əsasən partiyanın yerli təşkilatları yeni prinsiplər əsasında formalaşdırılmalıdır. Yeni Nizamnaməyə əsasən partiya strukturunda vəzifə tutan şəxs digər vəzifə daşıya bilməz. Bütün bu tələblərdən irəli gələrək YAP-ın yerli təşkilat aparatlarının yenidən formalaşdırılmasına ehtiyac yaranmışdı. Ona görə də iclasda bu məsələyə baxılıb və Bakı şəhərinin rayonları üzrə Yeni Azərbaycan Partiyasının yerli təşkilatlarının sədrləri təyin olunub.

Yeni Azərbaycan Partiyasının təsis etdiyi "Yeni Azərbaycan" qəzetinə yeni baş redaktorun təyin edilməsi məsələsi də müzakirə olunub, bu barədə qərar verilib. İclasda, həmçinin Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bir sıra məsələlərə də baxılıb.

Ötən dövr ərzində respublikanın digər şəhər və rayonları üzrə yerli təşkilatların sədrliyinə namizədlərin müəyyənləşdirilməsi ilə bağlı geniş təhlillər, müzakirələr aparılıb və yekun olaraq təklif olunan namizədlərin siyahısı hazırlanaraq İdarə Heyətinin üzvlərinə təqdim olunub. Yanvarın 28-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclasında yerli təşkilatların sədrlərinin vəzifəyə təyin edilməsi məsələsinə baxılıb və müvafiq qərar qəbul olunub. Bu qərarla yerli təşkilatlara rəhbər təyin edilənlərin üçdəikisi yeni şəxslərdir, bununla da onlar arasında orta yaş həddi təxminən 10 il azalmışdır. Artıq cari ilin fevral ayının 1-dən YAP-ın yerli təşkilatlarının sədrləri rəsmi qaydada fəaliyyətə başlayıblar. Hər bir şəhər və rayonda təşkilatlanma işinin daha çevik və müasir tələblərə, partiyanın Sədrinin qarşıya qoyduğu vəzifələrə uyğun qurulması üçün müvafiq tədbirlər görülür.

İdarə Heyətinin ötən il 29 dekabr tarixində keçirilmiş iclasının müzakirəsinə 2 məsələ - Yeni Azərbaycan Partiyasının Proqramının təsdiq edilməsi və Yeni Azərbaycan Partiyasında üzvlük haqlarının məbləği və ödənilməsi qaydasının təsdiq edilməsi məsələləri çıxarılıb, hər iki sənəd müzakirələrdən sonra yekdilliklə təsdiq edilib.

YAP-ın VII qurultayında partiyamızın Sədri cənab İlham Əliyev Yeni Azərbaycan Partiyasının yeni proqramının hazırlanması barədə tapşırıq və tövsiyələrini vermişdi. Bu tövsiyələrdən irəli gələrək yaradılmış işçi qrupu tərəfindən proqram üzərində işlərə başlanılmışdı. Ötən müddət ərzində sənədin layihəsi işçi qaydada dəfələrlə geniş tərkibdə müzakirə olunmuş, partiyamızın Sədri cənab İlham Əliyevin tövsiyələri əsasında təkmilləşdirilmişdi. Qeyd etmək istəyirəm ki, 1992-ci ildə təsis konfransında qəbul olunmuş və 1999-cu ildə keçirilmiş I qurultayda yenilənmiş, partiyamızın yaradıcısı Heydər Əliyevin müəllifi olduğu proqramda ideoloji prinsiplər, o cümlədən sosial-iqtisadi tərəqqi, əhalinin rifah halının yüksəldilməsi, sosial ədalətin bərqərar olunması, vətəndaş həmrəyliyi, Azərbaycanın beynəlxalq müstəvidə mövqelərinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi əsas hədəflər sırasında olub. Ötən illər ərzində qarşıya qoyulmuş bu vəzifələr yüksək səviyyədə icra edilib. Qürur hissi ilə vurğulamaq lazımdır ki, partiyamızın proqramı Azərbaycan xalqını və dövlətini qurtuluşdan tərəqqiyə, tərəqqidən zəfərə çatdırıb. Yeni proqram isə, əsasında Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi təməl prinsipləri dayanmaqla, Yeni Azərbaycan Partiyasının gələcək fəaliyyət istiqamətlərini müəyyən edən sənəddir.

5 fəsildən ibarət olan proqramda regionda yeni reallıqlar yaradan Azərbaycanın qarşısında dayanan yeni hədəflər əksini tapıb.

Qeyd edilənlərdən əlavə, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin digər iclaslarında həm partiyadaxili, həm də YAP-ın ictimai-siyasi proseslərdə iştirakı, qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi və icrası ilə əlaqədar müxtəlif məsələlərə dair müzakirələr aparılıb, adekvat qərarlar qəbul edilib.

Təbii ki, görülən işlər mütəmadi olaraq təhlil edilir, müvafiq nəticələr çıxarılır və müəyyən olunmuş vəzifələrə və perspektiv hədəflərə dair müzakirələr aparılır, fəaliyyət istiqamətləri müəyyənləşdirilir. Yeri gəlmişkən, qeyd edim ki, cari il fevralın 19-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Qərargahında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin iştirakı ilə keçirilmiş müşavirədə partiyada aparılmış islahatlardan sonra qarşıda duran strateji vəzifələr geniş müzakirə olunub.

Ardı Səh. 4

# YAP-ın VII qurultayı Azərbaycanın ictimai-siyasi həyatında yeni mərhələnin başlanğıcı oldu

Əvvəli-Səh-3

Sadalananlardan əlavə, Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə tədbirlərin keçirilməsi də milli maraqların qorunmasına siyasi-ideoloji dəstəyin verilməsi, o cümlədən dövlətin strateji maraqlarının müdafiəsi naminə ictimai rəyin formalaşması baxımından da önəmlidir. Keçirdiyimiz tədbirlər həm gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi - milli şüurun gücləndirilməsi, həm Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, həm partiyamızın beynəlxalq əlaqələrinin möhkəmləndirilməsi, həm də digər bir sıra istiqamətlərdə mühümdür. Nəzərə çatdırım ki, "Qarabağ savaşı: Azərbaycan-Türkiyə qardaşlığının növbəti təntənəsi", "Qələbənin ildönümü: Zəfər iqtisadiyyatının rolu və hədəfləri", "Qarabağ: Cənubi Qafqazdan dünyaya açılan yeni mənzərə", "Azərbaycanın inkişaf modeli: Dünən, bu gün və sabah", "Gender bərabərliyinin və qadın hüquqlarının təşviqində vətəndaş cəmiyyətinin rolu", "Şuşa Bəyannaməsi: milli-mənəvi dəyərlərimizə sadiqlik və gələcək əməkdaşlıq üçün yeni çağırışlar", "Azərbaycan - Türkiyə, bir millət, iki dövlət: Qarabağ zəfəri sonrası reallıqlar və uydurma erməni soyqırımı açıqlamasının regionda sülhə və stabilliyə təsirləri", "Vətən müharibəsi: Prezident-Xalq-Ordu birliyinin möhtəşəm rəmzi", "Nəsillərə nümunə ömür yolu", "Xocalı soyqırımı insanlığa qarşı törədilmiş cinayətdir" və digər bir sıra mövzularda tədbirlər keçirilib, faydalı müzakirələr və fikir mübadilələri aparılıb. "Azərbaycanın inkişaf modeli: Dünən, bu gün və sabah" mövzusunda keçirdiyimiz tədbirdə "Böyük yolun Müzəffər davamçısı" kitabının da təqdimatı olub. Vurğulayım ki, YAP-ın dəstəyi ilə hazırlanmış nəşr Prezident İlham Əliyevin 60 illik yubileyinə həsr olunub. Kitab ayrı-ayrı istiqamətlər üzrə 60 bölmədən, yəni 60 ayrıca mövzudan ibarətdir. Bununla yanaşı, dünyanın nüfuzlu şəxsiyyətlərinin, dövlət və hökumət başçılarının, tanınmış ictimai, siyasi və mədəniyyət xadimlərinin Prezident İlham Əliyev haqqında fikirlərinə yer verilib, 60 sitat diqqətə çatdırılıb. Eyni zamanda, 2003-cü ildən bəri həyata keçirilən siyasətin nəticələrini və Azərbaycanın qazandığı sosial-iqtisadi uğurları əks etdirən 60 statistik göstəriciyə nəzər salınıb. Həmçinin dövlət başçısının müxtəlif məsələlərlə əlaqədar fikirləri də kitabda öz əksini tapıb.

Bu gün Yeni Azərbaycan Partiyası həm iqtidar partiyası kimi, həm də ölkənin hər bir sahəsində təmsil olunan partiya kimi iqtidar-müxalifət dialoquna öz töhfəsini verməkdədir. YAP əməkdaşlığa açıq və yerlərdə siyasi dialoq ilə bağlı olan prosesləri stimullaşdıran partiyadır. 2021-ci ilin 21 oktyabr tarixində Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında parlamentdə təmsil olunan müxalifət partiyaların sədrləri ilə keçirilmiş görüş bu istiqamətdə görülən işlərə bir nümunədir. Yerlərdə müxalifət partiyalarının yerli təşkilatları ilə sağlam münasibətlərin qurulması YAP-ın yerli təşkilatlarının fəaliyyət istiqamətlərindən biridir.

Təbii ki, siyasi-ideoloji və təşkilati məsələlərlə əlaqədar işlərimiz davamlı və planlı xarakter daşıyır.

**- Vətən müharibəsindən sonra meydana çıxan çağırışlardan bəhs etdiniz. Bilirik ki, Azərbaycan 44 günlük müharibədə qələbə qazanmaqla yeni reallıqlar yaradıb. Postmüharibə dövründə qarşıda duran mühüm vəzifələrdən biri də hərbi zəfəri diplomatik müstəvidə möhkəmləndirməkdir. Bunun üçün isə xarici siyasətin uğurla davam etdirilməsi müstəsna əhəmiyyətə malikdir. YAP bu prosesə hansı töhfəni verir, partiyanın beynəlxalq əlaqələri necə inkişaf edir?**

- Doğrudur, Vətən müharibəsində qazanılmış möhtəşəm qələbənin strateji prosesə çevrilməsi, diplomatik müstəvidə möhkəmləndirilməsi istiqamətində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə mühüm addımlar atılır. Yeni Azərbaycan Partiyası da bu istiqamətdə öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

Ümumiyyətlə, partiyamızın səmərəli xarici əlaqələri və çoxşaxəli beynəlxalq əməkdaşlığı Azərbaycanın dövlətçilik maraqlarının qorunması üçün mühüm vasitədir. Sirr deyil ki, Yeni Azərbaycan Partiyasının çoxşaxəli fəaliyyəti ölkədaxili ictimai-siyasi münasibətlərdə fəal iştirakla məhdudlaşmır, eyni zamanda, beynəlxalq məzmun, xarakter və əhəmiyyət daşıyır. YAP ölkənin inzibati-coğrafi sərhədlərindən - respublikamızın hüdudlarından kənarda səmərəli əlaqələr formalaşdırmaqla, davam və inkişaf etdirməklə öz missiyasını yerinə yetirir. Şübhəsiz ki, Azərbaycanın və regionun ən güclü siyasi partiyalarından olan YAP-ın beynəlxalq münasibətlərinin yüksələn xətt üzrə inkişaf etməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın coğrafiyasının genişlənməsi, keyfiyyətcə zənginləşməsi yeni reallıqların təbliği, ölkəmizə qarşı yönəlmiş dezinformasiya və yalanların ifşası, informasiya müharibəsinə dəstək baxımından olduqca mühüm əhəmiyyətə malikdir.

Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrində dost və qardaş Türkiyənin, MDB üzvü olan ölkələrin, Avropa və Asiyanın aparıcı siyasi partiyaları və qurumları ilə münasibətlər mühüm yer tutur. Bu münasibətlər çərçivəsində partiyalar arasında intensiv təmaslar davam etdirilir, səmərəli, faydalı müzakirələr, fikir və təcrübə mübadilələri aparılır.

Bu baxımdan, Azərbaycan-Türkiyə mənəvi-siyasi birliyinin və 44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış yeni geostrateji reallıqların fonunda YAP-AK Parti əlaqələrinin də keyfiyyətcə yeni mərhələyə qədəm qoymasını xüsusi olaraq diqqətə çatdırmaq istəyirəm. İki hakim siyasi partiya dövlət başçılarının qardaşlıq münasibətlərini örnək götürərək əlaqələri daha da gücləndirməyi, inkişaf etdirməyi qarşıya məqsəd qoyub və bu istiqamətdə müvafiq siyasi, hüquqi addımlar atılır. Ötən ilin iyun ayında mənim rəhbərliyimlə Türkiyədə səfərdə olan YAP nümayəndə heyəti AK Partinin yüksəksəviyyəli rəsmiləri ilə görüşlər keçirdi, eyni zamanda, tarixdə ilk dəfə olaraq iki partiya arasında Əməkdaşlıq Protokolu imzalandı. Səfər zamanı nümayəndə heyətimiz Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qəbul edildi. Bu səfər çox səmərəli oldu və bizim qarşılıqlı münasibətlərimiz, gələcək əməkdaşlığımız üçün güclü hüquqi, institusional baza formalaşdırdı, siyasi əlaqələrin perspektiv inkişafı üçün əlverişli zəmin yaratdı. İyul ayında isə AK Parti sədrinin birinci müavini Numan Kurtulmuşun başçılığı ilə geniş nümayəndə heyəti ölkəmizə səfər etdi. Nümayəndə heyəti Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul olundu. Bundan sonra bizim birgə fəaliyyətimizin dəqiq konturları müəyyən edildi.

Bunlarla yanaşı, hər iki partiyanın birgə təşkilatçılığı ilə tədbirlərin keçirilməsi Azərbaycan ilə Türkiyənin milli maraqlarına dair məsələlərdə faydalı və əhəmiyyətli müzakirələrin aparılması, təmasların sıxlaşdırılması və münasibətlərin inkişafı baxımından çox önəmlidir. Partiyalarımızın əməkdaşlığı çərçivəsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Qarabağ zəfəri sonrası reallıqlar və uydurma erməni soyqırımı açıqlamasının regionda sülhə və stabilliyə təsirləri", "Qarabağ savaşı: Azərbaycan-Türkiyə qardaşlığının növbəti təntənəsi", Gəncədə partiyalarımız arasında ikitərəfli Əməkdaşlıq Protokoluna uyğun olaraq "Şuşa Bəyannaməsi: milli-mənəvi dəyərlərimizə sadiqlik və gələcək əməkdaşlıq üçün yeni çağırışlar" mövzularında konfransların keçirilməsi faktını bu baxımdan ayrıca diqqətə çatdırmaq istəyirəm. Digər tərəfdən, 2021-ci ilin dekabrında İstanbulda "Daha yaxşı dünya naminə çağırışlar" mövzusunda keçirilən XII Boğaziçi Sammitində rəhbərliyimlə partiyamızın nümayəndə heyəti iştirak etdi. Toplantıda Azərbaycanla yanaşı, Pakistan, Meksika, İngiltərə, Belçika, Danimarka da daxil olmaqla, dünyanın 49 ölkəsindən təmsilçilər iştirak edirdilər. Tədbir çərçivəsində "Türkiyə-Azərbaycan İqtisadi Əməkdaşlıqları - iş dünyasının perspektivləri" mövzusunda panel iclasında çıxış edərək Azərbaycan təcrübəsi ilə əlaqədar bir sıra zəruri - vacib məqamları diqqətə çatdırdım. Dekabrın 7-də isə AK Parti Sədrinin birinci müavini Numan Kurtulmuş ilə görüşümüz oldu. Görüş zamanı iki qardaş ölkənin hakim partiyaları arasında əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində işlərin davamlılığı, növbəti perspektiv planlar müzakirə edildi, qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı. Bununla yanaşı, Numan Kurtulmuşla birlikdə keçirdiyimiz mətbuat konfransında partiyalarımız arasında əməkdaşlığın hazırkı səviyyəsi və perspektiv inkişafı ilə əlaqədar mühüm məqamlara toxunduq. Digər tərəfdən, partiyalarımızın gənclər təşkilatları arasında görüşlərin keçirilməsi, fikir və təcrübə mübadiləsinin aparılması münasibətlərimizə dinamizm gətirən mühüm amillərdəndir. Bütövlükdə, bu təmaslar, tədbirlər bir millət, iki dövlət olan Azərbaycan ilə Türkiyənin mənəvi-siyasi birliyinin güclənməsinə öz töhfəsini verir.

Digər dost ölkələrin hakim partiyaları ilə əlaqələrimiz də uğurla davam etdirilir. Bu baxımdan, vaxtaşırı səfərlərin həyata keçirilməsi və görüşlərin təşkili mühüm əhəmiyyətə malikdir. Qeyd edim ki, ötən il YAP nümayəndə heyəti olaraq Ukraynaya səfərimiz çərçivəsində faydalı və məhsuldar görüşlər, təmaslar baş tutdu. Ukrayna Ali Radasının spikeri Ruslan Stefançukun rəhbərlik etdiyi nümayəndə heyəti, həmçinin Ukrayna Ticarət və Sənaye Palatasının prezidenti Gennadi Çijikov ilə görüşümüz zamanı iki ölkə arasında əməkdaşlığın inkişafından bəhs etdik, geniş müzakirələr apardıq. Bununla yanaşı, səfər çərçivəsində iki hakim partiya - YAP və "Xalqın Xidmətçisi" partiyası arasında əməkdaşlıq memorandumu imzalandı ki, bu da münasibətlərimizin əhatə dairəsinin genişlənməsi - yeni işbirliyi istiqamətlərinin müəyyənləşdirilməsi üçün əlamətdardır.

Ötən il Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrinin genişlənməsinə xidmət edən mühüm amillərdən biri də partiyamızın nümayəndə heyətinin Qazaxıstana səfəri oldu. Səfər zamanı paytaxt Nur-Sultanda təşkil edilən "Qazaxıstan siyasi-partiya sisteminin təkamülü: çağırışlar, nailiyyətlər və perspektivlər" adlı Beynəlxalq Forumda YAP nümayəndə heyətinin rəhbəri kimi iştirak etdim. Tədbirdə seçki sistemləri, müasir seçki meyilləri, ənənəvi və alternativ ideologiyaların perspektivləri ilə bağlı müzakirələr aparıldı. Zənnimcə, forum siyasi partiyalar arasında münasibətlərin inkişafına, fikir mübadiləsinə və bu sahədə zəngin təcrübənin fomalaşmasına mühüm töhfə oldu. Səfər çərçivəsində nümayəndə heyətimiz Qazaxıstanın müstəqilliyinin 30 illik yubileyinə həsr olunan tədbirə qatıldı.

Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının münasibətləri də uğurla davam edir. Ötən ilin iyul ayında Çin Kommunist Partiyasının təşkilatçılığı ilə Dünya Siyasi Partiyalarının "Xalqın xoşbəxtliyi naminə: siyasi partiyaların məsuliyyəti" mövzusunda videokonfrans formatında keçirilən sammitdə Yeni Azərbaycan Partiyası da təmsil olundu. 2021-ci il oktyabr ayının 29-da Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini, nazir Çyan Xunşan ilə videoformatda görüşümüzdə əlaqələrin intensivləşdirilməsi və digər bir sıra məsələlərlə əlaqədar zəruri müzakirələr apardıq. Əminliklə ifadə edildi ki, partiyalar arasında münasibətlər öz növbəsində dövlətlərimizin əlaqələrinin daha da güclənməsinə müsbət təsir edir. Noyabrın 19-da isə 19-cu çağırış Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin 6-cı plenar iclasının yekunlarına dair onlayn formatda keçirilən brifinqdə 40 nəfərə yaxın YAP üzvü iştirak etdi. "Pekin 2022" Qış Olimpiya Oyunlarının açılış mərasimində iştirak etmək məqsədilə Çində işgüzar səfərdə olan Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini Əli Əhmədovun Çin Kommunist Partiyasının Mərkəzi Komitəsinin Xarici Əlaqələr Şöbəsinin müdiri, nazir Sun Tao ilə görüşündə də Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əlaqələrin inkişaf etdirilməsi məsələləri müzakirə olunmuşdur. Bu da, öz növbəsində, Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığa verilən önəmin daha bir bariz nümunəsidir.

Səfərlər və görüşlər zamanı partiyalararası əməkdaşlıq məsələlərinin müzakirə olunması ilə yanaşı, Azərbaycan həqiqətlərinin, xüsusilə də postmüharibə reallıqlarının diqqətə çatdırılması da, zənnimcə, əhəmiyyətlidir. Çünki qeyd etdiyim kimi, yeni mərhələdə qarşımızda duran əsas vəzifə Qarabağ Zəfərinin diplomatik və informasiya müstəvisində möhkəmləndirilməsi, dost və tərəfdaşlarımızın sayının artırılması, Azərbaycana dəstəyin gücləndirilməsidir. Düşünürəm ki, YAP-ın xarici əlaqələrinin genişləndirilməsi də bu prosesə mühüm töhfədir.

**- Son olaraq cari il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümü olacaq. YAP-ın keçdiyi inkişaf yolu və yubileylə əlaqədar keçiriləcək tədbirlər barədə fikirlərinizi bilmək istərdik...**

- Əvvəla qeyd edim ki, 30 il bir ölkə və siyasi partiya üçün nə az, nə çoxdur. Bəzi ölkələr bu müddət ərzində zəngin və şərəfli inkişaf yolu keçirlər, bir qismi isə tənəzzül, xaos və anarxiya ilə üzləşirlər. Bu barədə dünyada, o cümlədən regionumuzda və postsovet məkanında kifayət qədər nümunə var. Burada əsas amil güclü və qətiyyətli lider faktoru, həmçinin xalq-iqtidar birliyi, milli həmrəylikdir. Bu baxımdan, Azərbaycan xalqı xoşbəxt və şanslıdır. Çünki xalqımız istər XX əsrin sonlarında, istərsə də XXI əsrin əvvəllərində öz müdrik liderləri Heydər Əliyevin və İlham Əliyevin dövlətçilik ənənələrinə, milli maraqlara və ümumbəşəri dəyərlərə əsaslanan siyasəti nəticəsində Azərbaycanın tərəqqisinin, müstəqilliyimizin rəmzi olan üçrəngli bayrağımızın ən yüksək zirvələrdə qürurla dalğalanmasının, ölkəmizin strateji zirvələr fəth edərək dünya miqyasında söz və nüfuz sahibinə çevrilməsinin sonsuz iftixarını yaşamışdır. Eyni zamanda, Yeni Azərbaycan Partiyasının yaranması və fəaliyyəti müstəsna əhəmiyyətə malik olan və haqlı olaraq müstəqil dövlətçiliyimizin dönüş nöqtələrindən hesab edilən hadisələrdəndir.

*Ardı Səh.5*

# YAP-ın VII qurultayı Azərbaycanın ictimai-siyasi həyatında yeni mərhələnin başlanğıcı oldu

Əvvəli-Səh-4

Bu, çoxəsrlik dövlətçilik tariximizin Heydər Əliyev erasının çox mühüm səhifələrindən biri, yeni Azərbaycanın müstəqil dövlət kimi dinamik inkişaf yoluna qədəm qoymasının başlanğıcıdır.

Biz haqlı olaraq YAP-ın yaradılmasının 30-cu ildönümünü qürurla, iftixarla qarşılayır və qeyd edirik. Çünki Yeni Azərbaycan Partiyasının tarixi müstəqil Azərbaycan dövlətinin inkişaf salnaməsidir. Müasir, müstəqil Azərbaycanın tərəqqisi, möhtəşəm tarixi nailiyyətlər qazanaraq güclü - qüdrətli dövlətə çevrilməsi Yeni Azərbaycan Partiyası ilə bilavasitə bağlıdır. Ulu Öndərin siyasi mirası olan YAP ötən 30 il ərzində nümunəvi, zəngin və şərəfli inkişaf yolu keçmişdir. Ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi, iqtisadi, ictimai və demokratik inkişafı istiqamətində öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmiş, çox mühüm tarixi təşəbbüslərə və müvəffəqiyyətlərə imza atmışdır. Bu gün sıralarında 800 minə yaxın vətəndaşı, cəmiyyətin bütün təbəqələrindən olan fəal, intellektual və vətənpərvər insanları birləşdirən partiyamızın bütün seçkilərdə möhtəşəm qələbə qazanaraq, sözün əsl mənasında, qələbələr partiyasına çevrilməsi və Azərbaycana qalib dövlət imici qazandırması da bu reallığın təsdiqidir. YAP qalib xalqımızın Zəfər partiyasıdır.

Ona görə də partiyamızın 30 illik şərəfli və zəngin siyasi inkişaf yolunun öyrənilməsi, təbliğ edilməsi məqsədilə işlərin görülməsi - tədbirlər keçirilməsi olduqca əhəmiyyətlidir. Bu, həm müasir müstəqil Azərbaycanın siyasi tərəqqi tarixinin, siyasi sistemin inkişaf qanunauyğunluqlarının, həm də mənəvi - ümumxalq sərvətimiz olan Heydər Əliyev irsinin, Prezident İlham Əliyevin alternativsiz siyasətinin əsaslarının dərindən öyrənilməsi baxımından vacibdir.

Diqqətə çatdırım ki, Yeni Azərbaycan Partiyasının təsis olunmasının 30 illik yubileyi ilə əlaqədar tədbirlər planı hazırlanır. Yubiley ili çərçivəsində bir çox tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Sözsüz ki, Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə çoxsaylı nailiyyətlərə imza atan Yeni Azərbaycan Partiyası yeni mərhələdə - bundan sonra da öz üzərinə düşən vəzifələri layiqincə, şərəflə yerinə yetirməklə milli tərəqqiyə mühüm töhfələr verəcəkdir. Çünki YAP, Ümummilli Liderimizin dediyi kimi, dünənin, bu günün və sabahın partiyasıdır. Dünən Azərbaycan xalqının, dövlətinin ictimai-siyasi məsuliyyətini öz üzərinə götürən Ümummilli Liderin ətrafında yaranmış, bu gün qalib xalqın Lideri, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən YAP sabah da taleyüklü məsələlərin həllində və tarixi məsuliyyət anlarında öz sözünü deyəcək - ümumxalq partiyası olduğunu hər zaman təsdiqləyəcək!

*Müsahibəni apardı:*
*İxtiyar HÜSEYNLİ,*
*"Azərbaycan" qəzeti*

# Yenilənmiş çevik idarəetmə mexanizmləri YAP-ın bugünkü obrazıdır

***Regionun ən böyük siyasi təşkilatı, hakim Yeni Azərbaycan Partiyasının VII Qurultayından 1 il ötür. 1 il öncə Partiyamızın sədri, Prezident cənab İlham Əliyevin sədrliyi ilə keçirilən Qurultayda qəbul olunmuş qərarlar və müəyyən edilmiş hədəflər qısa zaman ərzində ölkəmizin siyasi mühitində öz müsbət nəticələrini göstərməyə başladı. Bütün bunlar ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 30 il öncə yaradılmış Yeni Azərbaycan Partiyasının gələcək uğurlarının və hədəflərinin ilk göstəriciləridir.***



90-ci illərin əvvələrində böyük bir uçurumun astanasında olan Azərbaycan siyasi hərc-mərcliyin mərkəzinə çevrilmişdi. Yarıtmaz hakimiyyətin şəxsi maraqlara yönəlmiş addımları ölkəmizin varlığını böyük bir sual altına qoyurdu. Belə bir zamanda xalqın arzusu və mütləq dəstəyi ilə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev təkcə Azərbaycanı və xalqını xilas etmədi. O, əsasını qoyduğu Yeni Azərbaycan Partiyası ilə ölkəmizə siyasi peşəkarlığı və mədəniyyəti gətirdi. Bunun nəticəsi idi ki, bütün seçkilərdə YAP ard-arda parlaq qələbələr qazandı.

Təbii ki, Azərbaycan xalqının bütün seçkilərdə Yeni Azərbaycan Partiyasını dəstəkləməsi təkcə siyasi peşəkarlıq və uğurlu başlanğıcdan qaynaqlanmırdı. Burada digər önəmli bir məqam əvvəlcə Ümummilli Liderin 10 illik prezidentliyi dövründə, daha sonra isə Müzəffər Prezident, cənab İlham Əliyevin rəhbərliyində Azərbaycanın parlaq inkişafında, regionun lider dövləti rolunu daha da gücləndirməsində Yeni Azərbaycan Partiyasının öz siyasi rolunu oynaması idi. Bu rol istər partiya təmsilçilərinin öz fəaliyyətlərində, istərsə də xalq-iqtidar birliyində özünü açıq şəkildə büruzə verirdi.

Dünyada sürətlə başverən dəyişikliklər, yeniliklər onlara eyni şəkildə cavab verməyi, çevik adaptasiyanı tələb edir. Şübhəsiz ki, Azərbaycan və bütün regionumuz üçün ən böyük dəyişikliklər Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında ordumuzun Vətən müharibəsində qazandığı qələbə ilə bağlıdır. 2020-ci ildə, 44 gündə qazanılmış qələbə təkcə 30 ilə yaxın davam edən işğala son qoymadı. Ərazi bütövlüyünü bərpaedən Azərbaycan regiona yeni reallıqlar gətirdi. Dövrünün ən böyük liderlərindən olan prezident İlham Əliyevin bu reallıqları ən başından nəzarətdə saxlaması, atdığı addımlar Azərbaycanı sadəcə dəyişikliklərə uyğunlaşdırmadı, bu dəyişiklikləri özü üçün avantaja çevirən qalib ölkə statusuna gətirdi. Həyata keçirilən siyasi-iqtisadi islahatlar, qəbul olunan sosial proqramlar ölkəmizin regional güc mərkəzi obrazını daha da möhkəmləndirdi. Təbiidir ki, bu dəyişiklər və islahatlar siyasi mühitdə də daha çevik addımların atılmasını tələb edirdi. Bunun nəticəsi idi ki, 1 il öncə Yeni Azərbaycan Partiyasının VII Qurultayı həm partiyanın həyatında, həm də bütövlükdə ölkəmizin siyasi arenası üçün yeni bir başlanğıc oldu. Yeni reallıqların və çağırışların məntiqi ardıcıllığı olan bu başlanğıcın təməli partiyamızın sədri, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə qəbul olunmuş qərarlar və dəyişikliklərdə özünü göstərdi. Yenilənmiş struktur və heyət, çevik idarəetmə mexanizmləri, innovativ yanaşma, qəbul olunmuş proqramların milli kimlik, tarixi ənənələrimiz və dövrün çağırışlarının vəhdəti əsasında hazırlanması Yeni Azərbaycan Partiyasının gələcək obrazını əks etdirirdi. Bu dəyişikliklərin praktiki nəticələrinin ən başında, ilk ilində özünü göstərməsini yenilənmənin gətirdiyi uğurların başlanğıcı hesab etmək olar. Əlbəttə ki, xüsusi vurğulanmalı məqam Yeni Azərbaycan Partiyası sədrinin 1-ci müavini vəzifəsinə Azərbaycan Respublikasının 1-ci vitse-prezidenti, Mehriban xanım Əliyevanın təyin olunmasıdır. Mehriban xanım Əliyevanın öz fəaliyyəti, idarəetmə prinsipləri, ölkəmizdə həyata keçirilən islahatlarda oynadığı əvəzsiz rol və Azərbaycanın beynəlxalq nüfuzunun artması yönündə atdığı addımlar Yeni Azərbaycan Partiyasının gələcək uğurlarına olan inancı xüsusilə artırır. Yenidən formalaşdırılmış Mərkəzi Aparat, İdarə Heyəti, Veteranlar Şurası və Gənclər Birliyi cənab prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın gələcək uğurları və ölkəmizin daha da güclənməsi yolunda xidmət etməyi hədəfləyir. Yeni Azərbaycan Partiyası sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri cənab Tahir Budaqovun rəhbərliyi altında yenidən formalaşdırılmış mərkəzi struktur isə yenilikçi yanaşması, ümummilli maraqların qorunması və çevik idarəetmə prinsipləri ilə Yeni Azərbaycan Partiyasının ölkəmizdə formalaşdırdığı yeni siyasi mühitin əsas rolunu oynayır.

Ötən bir ilin nəticələri Yeni Azərbaycan Partiyasının həyatında təkcə struktur islahatları ilə yox, həm də yeni qəbul olunmuş proqram və əsasnamələrlə bağlıdır. Hazırlanmış proqramda partiyadaxili münasibətlərdən fərdi inkişaf elementlərinə qədər ölkəmizlə bağlı hər bir detalın xüsusilə diqqətə alınması, varislik və müasirlik anlayışlarının mükəmməl vəhdəti partiyamızın bugünkü obrazını səciyyələndirir. Peşəkarlıq, etik davranış və milli dəyərlər, innovativ inkişaf və kreativlik kimi prinsiplərin əsas partiyadaxili meyarlar kimi müəyyənləşdiyi proqram gələcək uğurlarımızda əvəzsiz rol oynayacaqdır.

Partiyamızın VII Qurultayındakı dəyişikliklər Yeni Azərbaycan Partiyasının Gənclər Birliyindən də yan keçmədi. Tamamilə yenidən formalaşdırılan heyətin qarşısında yeni reallıqların tələbindən doğan hədəflər dayanır. Prezident Cənab İlham Əliyevin istər VII Qurultaydakı çıxışı zamanı, istər bir çox çıxışlarında Azərbaycan gəncliyi ilə bağlı səsləndirdiyi fikirlər YAP Gənclər Birliyinin bugünkü və gələcək fəaliyyətinin əsas xəttini müəyyənləşdirir. Ötən il Şuşadan Azərbaycan xalqına səslənən Müzəffər Ali Baş Komandanın qeyd etdiyi xüsusi bir məqam onun rəhbərliyi altında Vətən Müharibəsində qazanılmış qələbədə iştirak edən Azərbaycan Ordusunun mütləq əksəriyyətinin onun hakimiyyəti dövründə formalaşmış gənclər olması idi. Son 19 ildə formalaşmış Azərbaycan gəncliyi vətəninə bağlılığını, bir yumruq ətrafında hər zaman birləşməyə hazır olduğunu və bununla da ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasətinin uğurlu nəticələrini 44 gündə sübut etdi. Qələbədən sonra yaranmış reallıqlar fonunda Azərbaycan gəncliyini yeni və daha da məsuliyyətli vəzifə gözləyir. Bu, qazanılmış qələbənin qorunub saxlanılması, müstəqilliyimizin hər daim möhkəmləndirilməsi və ölkəmizin gələcək inkişafı üçün var gücümüzlə çalışmaqdır. Bunun üçün isə vətənpərvərlik, varislik, dövlətçilik dəyərlərimizi hər zaman təbliğ etmək, milli kimliyimizi qorumaq, savadlı və yeni çağırışların gətirdiyi innovativ yenilikləri öyrənən gənclik olmalıyıq. YAP Gənclər Birliyi olaraq sadəcə çoxminlik partiya sıralarımızda təmsil olunmaq yox, bütün Azərbaycan gəncliyi üçün bu dəyər və prinsipləri aşılamaq, təbliğ etmək yönündə fəaliyyət göstərir, fəaliyyətimizi daha da təkmilləşdiririk.

Əminik ki, qarşıdakı zaman Yeni Azərbaycan Partiyasının VII Qurultayında qəbul edilmiş qərarların və qarşıya qoyulmuş hədəflərin daha böyük uğurlarını və nailiyyətlərini açıq şəkildə sübut edəcəkdir. yap.org.az

*Bəxtiyar İslamov*
*YAP Gənclər Birliyinin sədri*

# Yeni Azərbaycan Partiyasının VII Qurultayı: islahatlar və perspektivlər



***Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Bu gün Azərbaycanı 1990-cı illərin əvvəli ilə müqayisə etmək mümkün deyil.***

Əgər Azərbaycanın müstəqilliyinin ilk illərində baş verən hadisələrin qarşısı alınmasaydı və Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı olmasa idi, əlbəttə ki, bu günün Azərbaycan reallıqlarından belə söhbət açıla bilməzdi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə və milli inkişaf konsepsiyasına sədaqət ruhunda fəaliyyət göstərən YAP müstəqil dövlətimizin qurulması və möhkəmlənməsinə, ölkəmizdə sosial-iqtisadi inkişafın təmin olunmasına yönələn misilsiz xidmətlərlə zəngin olan yol keçib. O vaxtkı iqtidarın səriştəsiz siyasəti dövlətə, xalqa qarşı edilən xəyanətlər elə bir vəziyyət yaratmışdır ki, hətta Azərbaycana dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi yaratmışdır. Həmin vaxtlar YAP-ın yaranması tarixi zərurət kimi qeyd olunur. Dövlətçilik məfkurəsini gücləndirmək, milli dövlətçilik ideologiyasını işləyib-hazırlamaq və onu reallaşdırmaq həmin dövrlər üçün güclü siyasi iradə və bacarıq tələb edirdi. Bunların öhdəsindən layiqincə gələ biləcək şəxs Ulu Öndər Heydər Əliyev ola bilərdi. 1992-ci il noyabrın 21-də YAP-ın təsis konfransı keçirildi və qısa zaman kəsiyində, YAP siyasi hakimiyyətə gəldi. Bunun əsas qayəsi inam və etibar idi. YAP öz yaranışı ilə Azərbaycanın ictimai-siyasi fikir, siyasi fəaliyyət və mübarizələr tarixinə yeni bir keyfiyyət gətirdi. YAP Azərbaycan dövlətçiliyinin, onun müstəqilliyinin, bu gününün və sabahının qarantına çevrildi. Xalqın düzgün seçimi yeni və qüdrətli Azərbaycanın yaranması ilə nəticələndi. Ona görə ki, YAP üzərinə düşən missiyanı uğurla həyata keçirdi və bu gün də bu inkişaf göz önündədir. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz çox böyük uğurlar qazanmışdır. Son illərdə görülən işlər bunun deməyə əsas verir. Möhtərəm Cənab İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının sıraları getdikcə daha da artmaqdadır. Bu, dövlətimizin başçısına və Yeni Azərbaycan Partiyasına olan dərin inamdan və ehtiramdan irəli gəlir.






### ZAMANIN ÇAĞIRIŞI: YENİ İSLAHATLAR VƏ DƏYİŞİKLİKLƏR

Bu gün Yeni Azərbaycan Partiyasının qarşısında yeni vəzifələr durur. Bu vəzifələrin ən başlıcası Ümummilli Liderimiz Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanı daha da inkişaf etdirmək, onun regionun və dünyanın qüdrətli dövlətləri sırasında liderliyini qorumaqdadır. Artıq 2021-ci il 5 mart tarixində keçirilən Yeni Azərbaycan Partiyasının VII Qurultayından bir il ötür. Yeni Azərbaycan Partiyasının VII Qurultayı həm ölkəmiz, həm də partiya üçün əlamətdar və mühüm ictimai-siyasi hadisəyə çevrildi. Cəmiyyətin bütün təbəqələrindən olan insanları öz sıralarında birləşdirən ümumxalq partiyası YAP ölkə daxilində ictimai-siyasi münasibətlərin inkişafında, həmçinin Azərbaycanın tərəqqisində mühüm rol oynayan aparıcı qüvvəyə çevrilib. Qurultay tarixi əhəmiyyəti ilə yadda qaldı. Qurultayda partiyanın rəhbər strukturlarının yenidən formalaşdırılması istiqamətində mühüm qərarlar qəbul olundu. Partiyanın yeni Nizamnaməsi təsdiq edildi, YAP-ın İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası seçildi və bir sıra siyasi partiyaların Yeni Azərbaycan Partiyasına qoşulmasına dair müraciətlərinə baxıldı. Bildiyimiz kimi, Partiyanın Nizamnaməsinin qəbul olunmasından xeyli müddət keçmişdi və həmin dövr ərzində Yeni Azərbaycan Partiyası çox mühüm nailiyyətlərə və irəliləyişlərə imza atmışdı. Eyni zamanda, yeni islahatlar və dəyişikliklər çərçivəsində partiyanın idarə olunmasında, partiya fəaliyyətinin tənzimlənməsində müvafiq addımların atılması zərurəti yaranmışdı. Bütün bu məsələlər YAP-ın VII qurultayında təsdiq edilən yeni nizamnamədə öz əksini tapmış oldu. Bütövlükdə, sözügedən addımlar partiya həyatında daha çevik və effektiv idarəetmə mexanizminin formalaşdırılması baxımından böyük əhəmiyyətə malikdir. Azərbaycan Prezidenti İlham Əliyev Qurultayda çıxışı zamanı bildirdiyi kimi, "Hesab edirəm ki, partiya yeniləşmiş formatda, o cümlədən rəhbər orqanlarında təmsil olunan namizədləri nəzərə alsaq daha fəal olacaq, ölkə qarşısında duran problemləri daha fəal icra edəcəkdir. Həyat dəyişir, zəmanə dəyişir. Bir daha demək istəyirəm ki, biz ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə tətbiq etməliyik, o cümlədən siyasi islahatlar sahəsində. Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın. ”

Yeni idarəetmə modelini özündə ehtiva edən YAP-ın VII qurultayında qəbul olunmuş qərarlar hakim partiyanın iqtidar-xalq modelinin və milli həmrəyliyin yeni inkişaf mərhələsinin başlandığını nümayiş etdirdi. Qurultayda partiyanın daha təkmil idarəetmə forması müəyyən olundu. Xüsusilə də, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın partiyanın Sədrinin birinci müavini kimi fəaliyyəti YAP-ın nüfuzunun və gücünün, Yeni Azərbaycan Partiyasına ictimai dəstəyin daha da artması baxımından olduqca mühüm əhəmiyyətə malikdir. Mehriban xanım Əliyevanın partiyanın Sədrinin birinci müavini təyin edilməsi yeni mərhələdə Yeni Azərbaycan Partiyasının inkişafına təkandır və bu partiyanın və ölkəmizin yeni nailiyyətlər əldə etməsində mühüm əhəmiyyət daşıyır.

### ÖLKƏMİZDƏKİ SİYASİ DİALOQ MÜHİTİNİN GÖSTƏRİCİSİ

Qurultayda partiyanın rəhbər strukturlarının yenidən formalaşdırılması istiqamətində mühüm qərarlar qəbul olundu. Partiyanın yeni Nizamnaməsi təsdiq edildi, YAP-ın İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası seçildi və bir sıra siyasi partiyaların Yeni Azərbaycan Partiyasına qoşulmasına dair müraciətlərinə baxıldı. Partiyanın Nizamnaməsinin qəbul olunmasından xeyli müddət keçmişdi. Həmin dövr ərzində Yeni Azərbaycan Partiyası çox mühüm nailiyyətlərə və irəliləyişlərə imza atıb. Eyni zamanda, yeni islahatlar və dəyişikliklər çərçivəsində partiyanın idarə olunmasında, partiya fəaliyyətinin tənzimlənməsində müvafiq addımların atılması zərurəti yaranmışdı. Bütün bu məsələlər YAP-ın VII qurultayında təsdiq edilən yeni nizamnamədə öz əksini tapıb. Bütövlükdə, sözügedən addımlar partiya həyatında daha çevik və effektiv idarəetmə mexanizminin formalaşdırılması baxımından böyük əhəmiyyətə malikdir.

Yeni Azərbaycan Partiyasının VII qurultayında 6 siyasi partiyanın YAP-a qoşulmasına dair qərarın qəbul edilməsi də diqqət çəkəndir. 6 siyasi partiyanın YAP-a qoşulması fonunda Yeni Azərbaycan Partiyası milli həmrəyliyin təcəssümünə çevrilib. Bu reallıq yeni mərhələdə həm partiyanın, həm də ölkəmizin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Onu da vurğulamaq yerinə düşər ki, 6 siyasi partiyanın YAP-a qoşulması həm də ölkəmizdəki siyasi dialoq mühitinin göstəricisi və nəticəsidir.

### YENİ AZƏRBAYCAN PARTİYASI FƏALİYYƏTİNİ GÜNÜN TƏLƏBLƏRİNƏ UYĞUN QURAN SİYASİ TƏŞKİLATDIR

Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm qələbə qazanıb. Nəticədə Azərbaycanın ərazi bütövlüyü və tarixi ədalət bərpa olunub. Yeni Azərbaycan artıq yeni reallıqlar yaradıb. Bu reallıqlar həm ölkəmiz, həm də bütövlükdə region üçün yeni perspektivlər vəd edir, yeni çağırışlar yaradır. "İkinci Qarabağ müharibəsinin nəticələri də bölgə üçün yeni reallıqlar yaratmışdır" - deyən Cənab Prezident bildirib ki, bölgədə yeni əməkdaşlıq imkanları yaranmışdır: "Uzunmüddətli sülhün təmin edilməsi üçün çox önəmli şərtlər yaradılmışdır və eyni zamanda, ölkəmizdə də yeni dövrə qədəm qoymaq üçün yeni imkanlar yaranıb."

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi düşünülmüş qətiyyətli və uğurlu siyasət Azərbaycanı güclü dövlətə çevirmişdir. Azərbaycanın gücü 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olan torpaqlarımızı cəmi 44 gün ərzində işğaldan azad edilməsi ilə nəticələndi. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu möhtəşəm tarixi qələbə qazandı. Azərbaycanın əldə etdiyi parlaq Zəfər eyni zamanda, yeni reallıqlar yaratdı. Yeni Azərbaycan Partiyası da hər zaman öz fəaliyyətini günün tələblərinə uyğun quran siyasi təşkilatdır. Ümummilli Lider, Yeni Azərbaycan Partiyasının banisi Ulu Öndər Heydər Əliyevin qurduğu, yaratdığı müstəqil Azərbaycan inamlı inkişaf yolundadır. Buna dövlətimizin gücü və potensialı var. Azərbaycanın bugünkü və gələcək nəsillərinin Ulu Öndər Heydər Əliyevin şərəfli adı, ölməz ruhu qarşısında müqəddəs borcu Onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq və milli birliyimizə sədaqətlə xidmət göstərməkdir. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilib və onun əbədiliyi təmin edilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# 5 Mart Azərbaycanda Bədən Tərbiyəsi və İdman Günüdür




***5 Mart Azərbaycanda Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd olunur. Bu tarix Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Bədən tərbiyəsi və idman günü"nün təsis edilməsi haqqında 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən qeyd edilir. Azərbaycanda Bədən Tərbiyəsi və İdman Gününün martın 5-də qeyd olunması təsadüfi deyil. Məhz 1995-ci il martın 5-də Ulu Öndər Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşüb, İdman Fondunu təsis edib, bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyub.***

Məlumdur ki, sovet dövründə Azərbaycanda idman və bədən tərbiyəsi özünün inkişaf mərhələsinə Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etməsindən sonra qədəm qoymuşdur. Məhz Heydər Əliyevin sayəsində Azərbaycan idmanının inkişafı və gənc nəslin sağlamlığı üçün əhəmiyyətli addımlar atılmışdır. Ümumilli Liderin respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illərdə ölkədə bir çox idman kompleksləri, qurğuları, zalları tikilmiş, idman meydançaları salınmış, böyük idman-sağlamlıq mərkəzləri yaradılmışdı. Belə ki, təkcə Bakıda 1975-ci ildə 250 idman meydançası və şəhərciyi salınmışdı. 1973-cü ildə respublikanın paytaxtında möhtəşəm idman sarayının təməli qoyulmuşdu. 1974-cü ildə Bakıdan başqa, Azərbaycanın 36 rayonunda 59 uşaq-gənclər idman məktəbi fəaliyyət göstərirdi.

Müstəqilliyimizin ilk illərində ölkəmizin düşdüyü böhranlı vəziyyət idmanı da tənəzzülə uğratmışdı. Amma Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra idmana münasibət kökündən dəyişdi. İdmanın inkişafı, gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinin gücləndirilməsi məsələləri dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrildi. Qısa bir zamanda Azərbaycanda idmanın inkişafı sahəsində mühüm nailiyyətlər əldə edildi. İdmançılarımız ən mötəbər yarışlardan vətənə qızıl medallarla qayıtmağa başladılar. Qısa zaman kəsiyində Azərbaycan idmançılarının qazandığı qızıl medalların sayı 70 illik sovet dövründə qazandığımız qızıl medalların sayını ötüb keçdi. Ümummilli Lider Heydər Əliyev fiziki tərbiyə və idmanın inkişafına çox böyük diqqət ayırmış və çıxışlarının birində belə demişdir: "İdmanın və bədən tərbiyəsinin inkişafı üçün görülən işlər, gələcəkdə görəcəyimiz işlər, dövlətin və hökumətin siyasətinin əsas istiqamətlərindən biridir".

## İDMANÇILARIN PEŞƏKAR SƏVİYYƏDƏ HAZIRLANMASINA GÖSTƏRİLƏN QAYĞI ÖZ NƏTİCƏSİNİ VERİR

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı öz müsbət nəticəsini verib. Müxtəlif idman növləri - güləş, futbol, intellektual oyunlar, şahmat və s. növlərdə Azərbaycan Avropanın və dünyanın diqqətindən kənarda qalmayıb. İdmana ayrılan diqətin nümunəsidir ki, mötəbər idman yarışları, tədbirlər ölkəmizdə davamlı olaraq təşkil olunub. Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində, ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilməklə yanaşı, idmançılarımız mötəbər yarışların qalibi olub.

Ölkəmizin sosial-iqtisadi inkişafı sahəsində müəyyən olunmuş siyasət, respublikamıza uğurlar gətirməklə yanaşı, onun dünya miqyasında imicini də yüksəldib. Ümummilli Lider Heydər Əliyevin siyasi və iqtisadi kursunu uğurla davam etdirən, ideyalarını gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasətinin məntiqi nəticəsi olaraq, ölkənin davamlı iqtisadi inkişafı təmin edilib ki, bu da, bütün sahələrdə, eləcə də idman sahəsində böyük nailiyyətlərin əldə olunmasına səbəb olub. Azərbaycan dünyanın idman arenasında, artıq özünə layiqli yer tutub, istər beynəlxalq yarışlarda iştirakı, istərsə də beynəlxalq yarışlara ev sahibliyi etməsi ilə. Təbii ki, idman və bədən tərbiyəsi hər bir ölkənin beynəlxalq aləmdə tanınması, nəslin sağlam inkişafı üçün önəmli vasitələrdən olduğundan, bu sahəyə dövlət tərəfindən böyük diqqət ayrılır. Məhz bu səbəbdən də, Azərbaycan dövləti idmanın, xüsusilə də, Olimpiya Hərəkatının inkişafına xüsusi diqqət yetirir. Ümummilli Lider Heydər Əliyevin diqqət və qayğısı ilə özündə yeni keyfiyyət dəyişikliklərini əxz edən Azərbaycanın Olimpiya hərəkatı tezliklə sürətli inkişaf mərhələsinə qədəm qoydu. Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə diqqətlə yanaşması, idmançıların qayğı və problemləri ilə yaxından maraqlanması ölkədə idmanın kütləviləşməsinə, gənc nəslin bu sahəyə sürətli axınına şərait yaradıb. Azərbaycanın idman sahəsində qazandığı nailiyyətlər, dünya və Avropa çempionatlarında idmançılarımızın qazandığı medallar və mükafatlar ölkəmizin beynəlxalq idman təşkilatlarında da mövqeyinin xeyli güclənməsinə səbəb olub.

Azərbaycan Prezidenti İlham Əliyevin hələ 1997-ci ildə Milli Olimpiya Komitəsinin rəhbəri seçilməsindən sonra ölkəmizdə idmana və bədən tərbiyəsinə diqqət daha da artdı. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı isə, tezliklə öz müsbət nəticəsini verdi. 2008-ci ilin avqustunda Pekində keçirilən Olimpiya Oyunlarında Azərbaycan idmançılarının qazandıqları qələbələri, xüsusilə, qeyd etmək lazımdır. Pekin Olimpiya Oyunlarında Azərbaycan 7 medal qazandı və dünyanın iki yüzdən çox ölkəsi arasında 38-ci yeri tutdu. Olimpiya Oyunlarında qazanılan bu qələbə də, heç şübhəsiz, dövlətin idmana münasibətinin nəticəsi idi. MDB ölkələri zəhmətkeşlərinin beynəlxalq V İdman Oyunlarında Azərbaycan idmançıları 37 medal - 9 qızıl, 12 gümüş və 16 bürünc medal qazandılar.

## GƏNC NƏSİL FİZİKİ VƏ MƏNƏVİ CƏHƏTDƏN SAĞLAM YETİŞİR

Son 18 ildə Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, "Baku Crystall Hall", Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri müxtəlif növ yarışların keçirilməsinə imkan verir. İndi, nəinki paytaxt Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya idman kompleksləri fəaliyyət göstərir. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda - paytaxt Bakıda irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunub. Yeniyetmə cüdoçuların Avropa çempionatı, bədii gimnastika üzrə 27-ci dünya çempionatı, sərbəst güləş və yunan-Roma güləşi üzrə 24-cü dünya çempionatı, görmə qüsurlu paralimpiyaçı cüdoçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə 25-ci Avropa çempionatı, qılıncoynatma üzrə gənclər və kadetlər arasında dünya çempionatı, gənclər arasında boks üzrə dünya çempionatı və s. keçirilib. Bu yarışların Azərbaycanda keçirilməsi, inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb. İlk Avropa Oyunlarının da Bakıda keçirilməsi böyük nailiyyət oldu. "Bakı - 2015" Birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkil olunması və tarixi qələbənin qazanılması gələcəkdə ölkəmizdə daha möhtəşəm idman tədbirlərinin keçirilməsi üçün yeni perspektivlər açdı. Dünyanın 17 gün ərizində izlədiyi bu elit Oyunlarda xalqımızın tolerantlığı, sülhsevərliyi, qonaqpərvərliyi dünyaya nümayiş etdirildi. "Bakı-2015" ilk Avropa Oyunları təkcə qitədə deyil, dünya miqyasında mötəbər idman tədbiri kimi tarixiləşdi. İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançılarının qələbələri də yaddaqalan oldu. Bu idman, dostluq və qardaşlıq bayramına çevrilən oyunlar bir daha Azərbaycanın gücünü göstərdi. Azərbaycan 2015-ci ildə Avropa Oyunlarında ikinci, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə layiq görüldü.

Paytaxt Bakıda keçirilən yarım əsrdən artıq tarixi olan "Formula 1" idman tarixində yeni maraqlı səhifəyə çevrildi. 1950-ci ildən etibarən hər il keçirilən "Formula-1"-in möhtəşəmliyi üçün paytaxtımızda istənilən şərait yaradıldı. Dünyanın elit yarışmalarından olan "Formula 1" dünyanın 190 ölkəsində 500 milyondan artıq azarkeş tərəfindən izlənildi. Bu da paytaxtımız ətrafında kifayət qədər məlumatı dünya ictimaiyyətinə çatdırmış oldu.

Daha sonra Minskdə keçirilən İkinci Avropa Oyunlarında Azərbaycan millisinin 10-cu yerdə qərarlaşması idmanımızın növbəti uğuru oldu. 82 idmançı ilə təmsil olunan Azərbaycan millisi 28 medal qazanaraq, komanda hesabında 50 ölkə arasında 10-cu yerdə qərarlaşdı. Komandamız oyunları 5 qızıl, 10 gümüş, 13 bürünc medalla başa vurdu. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində "Bizim idmançılar çox peşəkar və vətənpərvərdir. Çünki qələbə uğrunda bu cür əzmlə mübarizə aparmaq səmimi qəlbdən milyonlarla Azərbaycan vətəndaşına sevinc bəxş etmək istəyən idmançıya xasdır", - deyərək idmançılarımızın gələcəkdə də bizi yaxşı nailiyyətlərlə sevindirəcəklərinə əminliyini ifadə edib.

Bütün bu uğurlar onu göstərir ki, gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam yetişməsini dövlətimiz daim diqqət mərkəzində saxlayır. Məhz bu diqqət və qayğı Azərbaycanın qarşıdakı illərdə idmanda daha böyük uğurlara imza atacağını deməyə əsas verir.

Bu gün ölkəmizdə cəmiyyətin inkişaf edən bütün sahələri kimi idman da öz çiçəklənmə dövrünü yaşayır. Yüksək səviyyəli idman infrastrukturunun yaradılması və olimpiya idman komplekslərinin inşa edilərək xalqımızın ixtiyarına verilməsi bunun təzahürüdür.

***Zümrüd BAYRAMOVA***

Şərh

# Böyük strateq, qalib Azərbaycan - qlobal dünya reallığında!

***Sirr deyil ki, çağdaş dövrümüz müxtəlif təlatümlərlə, çoxsaylı ictimai-siyasi hadisələrlə, dövlətlərarası münasibətlərdə yaranan bu və ya digər şəkildəki müsbət və mənfi yanaşmaları ilə zənginləşməkdədir. Dünyanın müxtəlif nöqtələrində bir-birini tez-tez əvəzləyən hadisələr hər gün yenisi ilə əvəzlənir və tüğyan edir. İqtisadi rəqabətlərdən tutmuş müharibələrə qədər hər şey kifayət qədər sürətlə çətin dövrümüzdə bu və ya digər şəkildə öz sirayətlərini göstərir. Müasir və qlobal dünyamızdakı cərəyan edən elə hadisələr də yaşanır ki, bu hadisələr dünya düzəninin yenilənməsi, yaxud xəritələrin, sərhədlərin dəyişilməsi ilə də nəticəsini tapır - diktə edənlər diktə olunanlara çevrilir, böyük güclər zəif sandıqları kiçik güclər qarşısından geri çəkilməli olurlar.***








***Müasir dünyamızda cərəyan edən elə hadisələr də yaşanır ki, bu hadisələr beynəlxalq siaysi düzəninin yenilənməsi, yaxud xəritələrin, sərhədlərin dəyişilməsi ilə də nəticəsini tapır - diktə edənlər diktə olunanlara çevrilir, böyük güclər zəif sandıqları kiçik güclər qarşısından geri çəkilməli olurlar***



Görünür, müasir siyasətin vaxtilə görünməyən tərəfləri artıq açıq-aşkar görünməyə başlamaqdadır və bütün bunların arxasındakı daha bir amil dövlətlərin öz siyasi-iqtisadi maraqları, sağlam, ya da qeyri-sağlam ambisiyaları kontekstindən çıxış edərək mövqelərini gücləndirmək məqsədləridir. Təbii ki, istər lokal, istərsə də total müharibələr və toqquşmalar da həmin maraqlardan irəli gələn faktorlara söykənməkdədir.

### Azərbaycanın sosial-iqtisadi nailiyyətləri ilə yanaşı, həm də hərbi-texnologiya sahəsində atdığı nəhəng sıçrayışları

Söz yox ki, bu kimi məsələlərdə nümayiş olunan daha bir reallıq dövrün texnoloji imkanlarıdır. Əbəs deyil ki, artıq dünyada 4-cü sənaye inqilabının nəticələri haqqında bəhs edilir və bu inqilab yalnız bir istiqamətdə deyil, çoxşaxəli istiqamətlərdə tərəqqi edir, informasiya-kommunikasiya, aqrar və qida sektorları o cümlədən, hərbi-texnoloji sahələri də məhz bu reallığı kifayət qədər əks etdirməkdədir.

Bu xüsusda, biz heç də uzağa getməyərək, Azərbaycanın son illərdə əldə etdiyi sosial-iqtisadi nailiyyətləri ilə yanaşı, həm də hərbi-texnologiya sahəsində atdığı nəhəng sıçrayışları haqqında bəhs edə bilərik. Sözügedən məqamın üzərində dayanmağımızın da məqsədi budur ki, ölkəmizin regionda və dünyada hansı üstünlüklərə malik olduğunu və beynəlxalaq siyasi arenadakı yerini və rolunu daha geniş təfsilatla analiz edək. Həmçinin dünyanın digər ölkələrində cərəyan edən hadisələrə Azərbaycanın təsirləri haqqında bəhsimizi aparaq.

### Dövlət idarəçiliyində nümayiş olunan qətiyyət və möhkəm iradə gerçəkliyi Azərbaycanın məqsədli tərəqqisinin qarşısını almağı bacarmadı!

Beləliklə, 30 ilə yaxın vaxt ərzində Azərbaycanın torpaqları Ermənistanın təcavüzkar siyasəti səbəbindən işğala məruz qalmışdı. Məhz 2020-ci ilin 27 sentyabr-10 noyabr tarixləri arasında davam edən 44 günlük Zəfər yürüşü dövlətimizin işğalçı üzərində qələbəsi ilə nəticələndi. İşğala məruz qaldığı zaman ərzində ölkəmiz çoxsaylı təzyiqlərlə, ikili standartlarla, qərəzli ittihamlarla qarşı-qarşıya qalırdı, lakin dövlət idarəçiliyində nümayiş olunan qətiyyət və möhkəm iradə gerçəkliyi Azərbaycanın məqsədli tərəqqisinin qarşısını almağı bacarmadı! Neft-qaz resurslarından, eləcə də digər enerji resurslarından doğru yöndə istifadə etməkdən başlayaraq iqtisadiyyatımızın möhkəmləndirilməsi prosesinə başlanıldı ki, bütün bunların arxasında yeganə qayə dayanmışdı - işğaldakı torpaqlarımızı düşmən tapdağından azad etmək!

### Artıq sübut olundu ki, İkinci dünya müharibəsindəki savaş aparmaq vasitələri tarixə çevirlir və müasir dünya müasir texniki imkanlar tələb edir

Bunun üçün isə ilk növbədə hərbi gücə, müasir müharibə aparmaq texnologiyalarına malik olmaq şərtə çevrilmişdi. Təbii ki, Azərbaycan xalqının vahid yumruq halında düşmənə qarşı mübarizə aparması reallığı da sözügedən məsələdə öncüllük təşkil edirdi. Amma Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin da vurğuladığı kimi, az itkilərlə maksimum qalibiyyət əldə etmək tezisi öz aktuallığını qorumalıydı. Bu xüsusda, Azərbaycanın düşmənə qarşı həyata keçirdiyi hərbi əmliyyatlarının hər biri bilavasitə nəhəng və müasir hərbi gücümüzün göstəricisi kimi tarixə düşdü.

ANALİTİK-AKTUAL











Əgər bu gün İkinci Qarabağ müharibəsinin aparılması dünyanın ən aparıcı dövlətlərinin hərbi akademiyalarında dərs vəsaitinə çevrilibsə, artıq bu faktın özü digər məqamları açıq şəkildə ortaya çıxarır. Azərbaycan Ordusu bu gün dünyanın yiyələnməyə çalışdığı ən müasir və modern hərbi texnologiyalara sahibdir. Əbəs deyil ki, hazırda dünyanın bir çox ölkələri öz siyasi maraqlarını məhz bu kimi texnologiyalar vasitəsilə həyata keçirmək məqsədi güdürlər. Artıq sübut olundu ki, İkinci Dünya müharibəsindəki savaş aparmaq vasitəsi tarixə çevirlir və müasir dünya modern - həmçinin beşinci nəslə cavab verəcək texniki imkanlar tələb edir. İndi bütün dünya dərk edir ki, Azərbaycan Silahlı Qüvvələrinin istər havada, istərsə də quruda malik olduğu müasir və beşinci nəsil texnikaları Ermənistanın köhnə, paslanmış hərbi texnikalarını lazımsız metal yığınına çevirdi. Digər tərəfdən, taktiki müharibə aparmaq qabiliyyətini də nümayiş etdirən Silahlı Qüvvələrimiz bütün ərazilərdə - dağlarda, düzənlik zonalarında, meşəliklərdə, şəhər tipli qəsəbələrdə ən müasir savaş standartları ilə beynəlxalq aləmi heyrətləndirməyi bacardı. Məhz qeyd etdiyimiz 4-cü sənaye inqilabının məntiqi nəticələrindən biri də Azərbaycanın hərb sisteminin heç bir dövlətlər tərəfindən gözlənilməyən sürətli sıçrayışı oldu. Özü də siyasət meydanında ikili standartlarla, qərəzlərlə, təzyiqlərlə üzləşdiyi bir məqamlarda!

## STOP etmək strategiyasının məntiqi isbatı və elə də uzaqda olmayan "X" vaxtı!

Sirr deyil ki, müharibəni strateqlər idarə edirlər. Lakin strateq yalnız o demək deyil ki, müharibə gedərkən, qərargahdakı xəritələrə baxsın, həndəsi dəqiqlikləri icra etsin və s. Əsl strateq qalibiyyətin əldə edilməsindən sonra onu saxlamaq, sonrakı müddətdə isə davam etdirərək yekun nəticəni qazanmaq bacarıqları ilə seçilməlidir. Məhz Müzəffər Ali Baş Komandanımızın möhtəşəm strateq olması, hərb elminə dərindən yiyələnməsi reallığı da buradan qaynaqlanır.

ildiyimiz kimi, 44 günlük Vətən müharibəsində Azərbaycan dövləti istər yaxın, istərsə də uzaq xaricdən çoxsaylı, hətta belə desək, davamlı təzyiqlərə məruz qalırdı. Lakin güclü və əyilməz iradə, eləcə də uzaqgörənlik instinktləri, həmçinin prinsipiallıq sayəsində Ordumuz düşməni darmadağın edirdi, habelə dövlət başçımız haqlı, ədalətli mübarizəmizin köklü səbəblərini, tarixi həqiqətləri xarici aləmə anlatmaqla paralel şəkildə informasiya müharibəsini də həyata keçirdi. Ancaq daha bir mühüm məqam da var: İlham Əliyev siyasətinin ən mükəmməl vasitələrindən biri də bu qalibiyyət gerçəkliyidir - nəyi nə vaxt etməyi bilmək! Bu gün Şuşamızın, Hadrutumuzun və s. torpaqlarımızın azadlığı da həmin məqamlara söykənir. Və ən əsası, hazırda Rusiya sülhməramlılarının müvəqqəti nəzarətlərində qalan digər ərazilərimizin də quldur silahlılardan təmizlənəcəyi kimsəyə sirr deyil. Sadəcə, bunun üçün də vaxt, zaman və əlbəttə ki, minimal şəkildə irəliləməklə maksimal uğur əldə etmək gərəkdir. Ona görə də, Müzəffər Ali Baş Komandan əvvəllər olduğu kimi, illər öncəni necə görürdüsə, bu kimi məsələləri də necə deyərlər, millimetrinə qədər müəyyən edib. Əgər işğalçıların darmadağın edilməsi ilə 44 günlük Vətən müharibəsinin başa çatması 10 noyabr tarixinə aiddirsə, yerdə qalan separatçı tör-töküntülərin də mühasirədə (!) qaldıqları ərazilərdən qovulmaları yaxın, bəlkə də çox yaxın "x" vaxtına təyin edilib və buna qətiyyən şəkk-şübhə də yoxdur! Eyni zamanda, sərhədlərimizin delimitasiya və demarkasiyası məsələsində də Azərbaycan dövlətinin əldə etdiyi nailiyyətlər göz önündədir. 3-4 il əvvəl Gorus-Qafan yolunda Azərbaycan postunun, yanacaqdoldurma məntəqəsinin, Göyçə gölünün yaxınlığında, Qaragöldə istehkam və dayaq məntəqələrimizin yerləşəcəyini yuxularına belə gətirə bilməyən istər erməni, istərsə də onlara qahmar çıxanlar tərəfi indi əsl həqiqəti öz gözləri ilə və ən əsası, heç nə edə bilməmələri, acizlikləri ilə seyr etməkdədirlər. SUAL: Bəzi cəmiyyət üzvlərimizin bu qədər qalibiyyətlərin qarşılığında Qarabağda mühasirədə qalmış kiçik erməni çetesinin daha bir neçə illər orada mövcud olacaqlarını bilməzə şəkildə iddia etmək nə qədər haqlı yanaşmadır?

Əlbəttə ki, çox yaxın dövrdə biz bu iddiaları edənlərin də gözlərinin içinə baxaraq sözümüzü deyəcəyik, o gün əslində heç uzaqda da deyil! Beləliklə, 2020-ci ilin 10 noyabrında müharibəyə STOP deyildi, amma əlbəttə, onun davam etməyəcəyini də kimsə sığortalamayıb, əgər düşmən ağıllanmazsa təbii ki. Və bunu dünyanın ən böyük strateqlərindən olan Müzəffər Ali Baş Komandanımız hamıdan yaxşı bilir!

Bu gün Ukrayna çöllərində ilişib-qalan rus tankları, artilleriya və raket qurğuları hava vasitəsi ilə və oyuncaq kimi görünən kiçik Bayraktar PUAL-ları ilə məhv edilirlər

44 günlük müharibə həm də müasir dünyamızın dəyişən simasını da xəritə mənzərəsində sərgilədi. Təəssüf ki, Azərbaycandan fərqli olaraq postsovet ölkələrində separatçı qurumlardan xilas olmayan bir sıra dövlətlər qalmaqdadır. Daha doğrusu, Azərbaycan qondarma xəritələr və qondarma dövlətlər stereotipini dəyişməyə müvəffəq oldu və bir sıra postsovet ölkələrinə də bunun mümkünlüyünü əməli qaydada isbatladı. Sadəcə, həmin dövlətlərin də öz strateqləri olmalıdır. Hələlik, Gürcüstanın Abxaziya və Cənubi Osetiya problemləri qalmaqdadır, Moldovanın Dnestryanı problemi həll edilməyib, Ukraynaya gəldikdə isə...

Bu ölkədə artıq bir həftədən artıqdır ki, müharibə gedir və müharibəni başlayan tərəfin Rusiyanın olduğu da kimsəyə sirr deyil. O cümlədən, bu məsələdə Qərbin də maraqlarının olması faktdır. Ukrayna çoxsaylı siyasi maraq faktorlarının mərkəzi meydanıdır desək, yanılmarıq. Məhz müharibənin başlaması səbəbi də qlobal dünyamızda xəritələrin, mövqelərin dəyişilməsi maraqlarının oyanmasıdır. Rusiya Qərb dünyanın onun sərhədlərinə tərəf genişlənməsini istəmir, bunun üçün öz hərbi-siyasi egidası altında Donetsk və Luqansk adlı separatçı qurumlar yaradır, Krımı ilhaqa məruz qoyur, Ukraynanın ərazi bütövlüyünü isə pozur. Qərb isə əksinə - Rusiyanın onların sərhədlərinə doğru irəliləməsini əngəlləməyə çalışır.

Lakin gördüyümüz kimi, bir neçə günlük planı sayəsində Ukraynanı ələ keçirəcəyini düşünən Rusiya yalnız ukraynalıların güclü müqaviməti, habelə Ukrayna prezidentinin qətiyyəti ilə qarşılaşmadı, Rusiya saysız-hesabsız tankları və topları, artilleriya qurğuları, raketləri, canlı qüvvələri ilə əslində təsəvvürünə gətirə bilməyəcəyi hərbi-texniki müqavimətlə də qarşılaşmalı oldu.Burada Ukraynaya Qərbi Avropa və Baltikyanı dövlətlərinin, ABŞ-ın, Kanadanın, Böyük Brtitaniyanın silah-sursat, texnika cəhətdən davamlı yardımlarını qeyd edə bilərik. Etiraf edək ki, Ukrayna silah və canlı qüvvə sayı baxımından Rusiyadan dəfələrlə geri qalmasına rəğmən, ən müasir ultra-hərbi texnoloji silahları ilə artıq düşməninə çevrilmiş ölkəni üstələyir. Bu gün Ukrayna çöllərində ilişib-qalan rus tankları, artilleriya və raket qurğuları hava vasitəsi ilə və oyuncaq kimi görünən kiçik Bayraktar PUAL-ları ilə məhv edilirlər. Və ən əsası..!

## Ukrayna Azərbaycanın Qarabağ taktikasından istifadə edir

Ən əsası, Ukrayna bu müharibədə Azərbaycanın 44 gündə apardığı Qarabağ savaşı metodikasından, vasitələrindən, hərbi taktikalarından maksimum istifadə etməkdədir. Yalnız bu yolla Ukrayna hədsiz hərbi gücü olan Rusiya kimi dövlətin arsenalı qarşısında tab gətirməyi bacarır. Və əgər bu gün Rusiya bəzi ərazilərdə irəlilədiyi halda Ukrayna rəhbərliyi ilə danışıqlar raundlarına qatılırsa, demək ki, onların da hər hansı çəkinəcəklərinin yaranması özünü daha qabarıq şəkildə büruzə verməkdədir. Artıq bu gün Rusiyanın hərbi gücü qarşısında yeni və müasir güc dayanır. Sadəcə, bu dəfə Rusiya mövcud vəziyyətində STOP deməlidir, əks halda hər şeyini, hətta illər əvvəl qazandıqlarını da Ukrayna çöllərində qoya bilər, biz hələ ölkənin varlıq olaraq siyasi-iqtisadi cəhətdən məhvə uğrama ehtimallarını demirik. Belə ki, hazırda ucu-bucağı görünməyən və bundan sonra da tətbiq ediləcək çoxsaylı sanksiyaların tətbiqlərindən başlamış bütün beynəlxalq təşkilatlardan kənarlaşdırılmasına qədər hər şey (!) bu gün Rusiyanın əleyhinə işləyir. Maraqlıdır, bəs onlarda da vaxtında STOP deyə biləcək böyük strateq tapılacaqmı? Hələlik qarşıda qəzəbli dövlət rəhbərindən başqa heç kim görünmür...

Nəticədə isə qeyd edə bilərik ki, dünyanın qlobal problemləri bundan sonra da tükənəcək kimi görünmür və bu kimi amillərdən sonluq hasil etməyimizlə bizlər öz gələcəyimizə optimal kimi baxa bilərik. Çünki Azərbaycan dövləti və bu dövlətin rəhbəri - böyük strateq İlham Əliyev artıq bundan sonrakı illərlə bağlı ən uğurlu planlarını, strateji düşüncələrini hazırlayıb və bütün bunlar ölkəmizin, xalqımızın daha yüksək tərəqqisinə hesablanmış planlardır.




***Rövşən RƏSULOV***

# Qadınlar cənnətdir, cənnətinizi əldən verməyin







***Bir qadını ortadan ikiyə bölsək, yarısı ana, yarısı uşaq, yarısı sevgili, yarısı da eşqdir. Təəssüf ki, bunu çox insan anlamır və ya anlamaq istəmir.Bir qadın səni heç bir şeyin olmadığında sevirsə, gözlərinin içinə sevgi ilə baxırsa, eşitdiyi ən gözəl səs sənin səsindirsə, dinlədiyi ən gözəl mahnı sənin ürəyin döyüntüsüdürsə, sən ağlayanda ağlayırsa, sən xəstələnəndə narahat olursa, gec gələndə səhərə qədər yatmırsa, səni sevirsə, darıxırsa, qısqanırsa onu əsla itirmə.***

Heç kim sənə o qadın kimi baxa, toxuna, sevə bilməyəcək.Qadını daxili gözəlliyinə görə sevin. Geyiminin, makiyajının, saçının, qaşının gözəlliyinə görə yox! Qəlbin gözəlliyini sevin. Ürəyi gözəl qadın sənə nə xəyanət edər, nə də incitməz. O, yıxılsan səni ayağa qaldırar, kimsə qalmazsa, səninlə qalar.Qadını gözəl edən makiyajı deyil, üzündəki təbəssümdür. O gözəl təbəssüm isə yalnız sevgi ilə gəlir. Qadın sevgi və diqqətlə gözəlləşir.Qadını sev. Sənə ömür olsun, yoldaş olsun, ümidin kəsiləndə sənə ümid versin. Heç kim yoxkən yanında olacaq və səndən başqa heç kimi görməyəcək bir qadını sevin. Həyatını sənə həsr edə bilən qadını sevin.Unutmayın ki, qadınlar Allah tərəfindən bizə əmanətdir. Xüsusən də sevən, ürəyini bizə verən qadınlar. Bu dünyada qalacaq tək şey sevgidir, pul da bitəcək, amma sevgi qalacaq.Lazım olanda həyat yoldaşı, sevgili, ana, dost, sirdaş, yoldaş olacaq qadını sevin. Sizi namazına dəvət edən qadından heç bir zərər gəlməz.Beynəlxalq Qadınlar Gününə sayılı günlər qalıb. 8 Mart Birləşmiş Millətlər Təşkilatı tərəfindən müəyyən edilib. Bu gün qadınların insan hüquqları əsasında siyasi və sosial şüurunun inkişafına, onların iqtisadi, siyasi və sosial nailiyyətlərinin qeyd olunmasına həsr olunub.Beynəlxalq Qadınlar Günü hər il 8 Martda qeyd olunur və bu il çərşənbə axşamına təsadüf edir. 8 Mart 1857-ci ildə ABŞ-ın Nyu-York şəhərindəki tekstil fabrikində 40 min toxuculuq işçisi iş şəraitinin yaxşılaşdırılması tələbi ilə tətil etdi. Lakin polisin işçilərə hücumu və işçilərin fabrikdə kilidlənməsi, ardınca baş verən yanğın nəticəsində işçilərin fabrikin qarşısında qurulan barrikadalardan qaça bilməməsi nəticəsində 129 qadın işçi həyatını itirib. İşçilərin dəfn mərasimində 10 mindən çox insan iştirak edib.

Almaniya Sosial Demokrat Partiyasının liderlərindən biri olan Klara Setkin 26-27 avqust 1910-cu il tarixlərində Danimarkanın Kopenhagen şəhərində tekstil fabrikində yanğında həlak olan qadın işçilərin xatirəsinə 2-ci Beynəlxalq Qadınlar Konfransında 8 Mart 1857-ci ildə "Internationaller Frauentag" (Beynəlxalq Qadınlar Günü) və təklif yekdilliklə qəbul edildi.İlk illərdə konkret tarix təyin olunmasa da, bu gün həmişə yazda qeyd edilirdi. 1921-ci ildə Moskvada keçirilən 3-cü Beynəlxalq Qadınlar Konfransında tarix 8 Mart olaraq təyin olundu. Onun adı həm də "Beynəlxalq Əməkçi Qadınlar Günü" kimi müəyyən edilib. Birinci və İkinci Dünya Müharibəsi arasında bəzi ölkələrdə qeyd olunması qadağan edilən Beynəlxalq Qadınlar Günü, 1960-cı illərin sonunda ABŞ-da qeyd edilməyə başlandıqda daha güclü şəkildə gündəmə gəldi. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 1977-ci il dekabrın 16-da 8 Martın "Beynəlxalq Qadınlar Günü" kimi qeyd olunmasını qəbul etmişdir. Birləşmiş Millətlər Təşkilatının saytında günün tarixi ilə bağlı bölmədə bayramın Nyu-Yorkda həlak olan işçilərin xatirəsinə həsr edildiyi yazılmayıb.Bəs, gəlin görək qadınlara 8 Mart üçün hansı hədiyyələr alına bilər?

**Qadınlar günü üçün hədiyyələr:**

Kitab



Boyunbağı

Sırğa

Saat

Kosmetika

Dəriyə qulluq məhsulları

Çiçək: Çiçəklər hər zaman hər kəs üçün zərif bir hədiyyədir.

Şokolad: Şokolad həmişə yaxşı hədiyyələrdən biridir. Üstəlik, indi gözəl paketlərdə və təqdimatlarda satılır.

Aksesuar- bilərzik: Adı xüsusi bilərziklər indi məşhurdur, eləcə də ada məxsus boyunbağılar.

Ətir

Geyim

Mətbəx ləvazimatları

Elektron mallar

Ev əşyaları

Foto albomlar

Çanta: Çantalar hər bir qadın üçün bəzən vacib zərurət, bəzən də vacib aksesuardır.

Xüsusi qələmlər: Xüsusilə qeydlər aparmağa diqqət edənlər üçün qələm gözəl bir hədiyyə olacaq.

Termos: Naxışlı termosları gündəlik həyatda tez-tez görürük. Xüsusilə idman və ya pəhriz edənlərin əlində gördüyümüz rəngli termos gözəl hədiyyə ola bilər.

Texnologiya məhsulları: Texnika ilə bağlı marağı olan biri üçün yaxşı seçim ola bilər. Adlı USB, qəhvədəmləyən, qulaqlıq, telefon kimi məhsullar yaxşı hədiyyə seçimləri arasındadır.

SİA 8 Mart Beynəlxalq Qadınlar Günü ilə bağlı araşdırma apararaq ekspert, psixoloq və sosioloqların fikirlərini öyrənib.

**Sosioloq, Sağlam Cəmiyyət Hərəkatının sədri Lalə Mehralı:** "Bu günün tarixi ilə bağlı bir neçə tarix var. Yəni, günün təyin olunması illər almışdır. Qadınlar o zaman öz hüquqlarını tələb edirdilər. Onlar kişilərlə bərabər hüquqa malik olmaq, səs vermək, cəmiyyətin vacib məsələlərində söz haqqlarının olmasını istəyirdilər.



Qadınlar daha yüngül iş və normal maaş tələb edirdilər. Bu da haqlı olaraq onlara verildi.30-dan çox ölkədə 8 Mart qeyd edilir. Təqvimdə də istirahət günü kimi yer alıb.

Ümumilikdə, Azərbaycan reallığına nəzər yetirsək, 8 Mart Azərbaycan qadını üçün qurtarıcı əhəmiyyətə malik tarix deyil. Ondan çox əvvəllər bizim qadınlarımız seçmək-seçilmək, səs vermək, cəmiyyətdə vəzifə və mövqe tutmaq hüquqlarına malik idi. Amma bütün bunların fonunda dünyada hüququ olmayan qadınlar üçün belə bir günün təyin edilməsi olduqca yaxşı hal idi.

Düzdür, indi 8 Mart gününün tarixi yaddan çıxarılıb. Belə ki, bu gün yalnız hədiyyə almaq və vermək günü kimi yadda qalıb. Məncə, 8 Mart gününün həqiqi tarixi barədə insanları məlumatlandırmaq lazımdır. Verilişlərdə çal-çağır yerinə, qadınların həyat hekayələrini efirdə təqdim etmək lazımdır. Cəmiyyətin formalaşmasında rolu olmuş, öz əməlləri ilə cəmiyyətə töhfə vermiş qadınları məhz bu gündə tanıtmaq lazımdır".

**Psixoloq Fidan Nizamova:** "8 Mart Beynəlxalq Qadınlar Günün-



də hər bir xanım, uşaqdan tutmuş böyüyə hər kəs diqqət istəyir. Yəni, burada məsələ hədiyyədə deyil, hədiyyə ilə ölçülmür. Hər kəsin dəyərli olduğunu, hər bir qadın vacib olduğunu hiss etmək istəyir.

Kişilərə tövsiyə edərdim ki, bu günü çalışsınlar sırf xanımlarına ayırsınlar. İşdən, öz məşğuliyyətlərindən kənar olsunlar. Mütləq deyil ki, bu günü bayram kimi qeyd etsinlər. Sadəcə, bərabər olmaq kifayətdir. Ən gözəl hədiyyə zamandır. Bir-birimizə sevgimizi büruzə vermək, göstərmək üçün ən yaxşı hədiyyəmiz öz vaxtımızı həmin adama sərf etməkdir.

Bəzən kişilər düşünür ki, bayram gəlir, hədiyyə almaq lazımdır və s. Yəni bunları özlərinə bir az dərd edirlər. Amma qeyd etdiyim kimi xanımlara bu hədiyyəni ilin istənilən vaxtı da verə bilərsiniz. Amma ildə heç olmasa bir gün özünü bu qədər önəmli hiss etmək, bir gün özünə həsr edilmiş hiss etmək həm münasibətləri möhkəmləndirir, həm də bir-birilərinə olan sevgiyə daha da bir zəriflik qatır. Hər bir kişilərə, xüsusilə azərbaycanlı kişilərə tövsiyə edərdim ki, buna sırf bayram kimi, yük kimi yanaşmasınlar".



**Psixoloq Zeynəb Əyyubova:** "Bizim ən böyük səhvimiz qadınları sevindirməyi, xoşbəxt etməyi, onlara hədiyyə verməyi hansısa günlə məhdudlaşdırmaqdır. Əslində, qadının ruhu daim xoşbəxt olmalı, daim hədiyyə gözləməlidir. Hansısa bir günü özəl seçib qeyd etmək düzgün deyil. Qadına sıx-sıx surprizlər edilməlidir".

***Ayşən Vəli***

ARAŞDIRMA

# Dünyaya nümunə olan Azərbaycan-Türkiyə qardaşlığı

***Azərbaycan - Türkiyə əlaqələri sarsılmaz dostluq və qardaşlığa söykənir və uğurla davam etdirilir. Əsrlər boyu Azərbaycan və türk xalqları həmişə bir-birinə dəstək olmuş, sıx əməkdaşlıq etmişdir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənir.***

Əsrlər boyu Azərbaycan və türk xalqları həmişəbir-birinə dəstək olmuş, sıx əməkdaşlıq etmişdir. Qarşılıqlı etimad, yüksəksəviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənir. Ulu Öndər Heydər Əliyevin bir millət, iki dövlət olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatıb və keyfiyyətcə yeni müstəvidədir.



Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Cənab Rəcəb Tayyib Ərdoğana ad günü münasibətilə ünvanladığı səmimi təbrikində bildiriyi kimi, "Xalqlarımızın sarsılmaz iradəsindən qaynaqlanan və "Bir millət iki dövlət" prinsipinə əsaslanan Azərbaycan-Türkiyə münasibətlərinin bugünkü ali səviyyəyə yüksəlməsində Sizin əvəzsiz rolunuz vardır. Birliyimizin və müttəfiqliyimizin möhkəmləndirilməsi yolunda davamlı səyləriniz, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və torpaqlarımızın işğaldan azad edilməsi işinə verdiyiniz daimi dəstək ölkəmizdə Sizə dərin hörmət və ehtiram qazandırmışdır".

Təbrikdə o da qeyd olunur ki, Cənab Rəcəb Tayyib Ərdoğanın müdrik və uzaqgörən rəhbərliyi ilə qardaş Türkiyə Respublikası bu gün bütün sahələrdə mühüm nailiyyətlər əldə etmiş, beynəlxalq aləmdə söz sahibi olmuş və böyük nüfuz qazanmış güclü və qüdrətli dövlətdir: "Qətiyyətli liderliyiniz və çoxşaxəli

fəaliyyətiniz sayəsində ölkənizin keçdiyi hərtərəfli inkişaf yolu, imza atdığı

uğurları bizi səmimi-qəlbdən sevindirir və ruhlandırır".

## TÜRKİYƏ İLƏ AZƏRBAYCAN ARASINDA İMZALANAN MÜQAVİLƏLƏR YENİ MƏRHƏLƏNİN ƏSASINI QOYUB

Həm ikitərəfli formatda, həm regional müstəvidə Türkiyə-Azərbaycan qardaşlığı və birgə fəaliyyəti bir çox irimiqyaslı layihələrin gerçəklənməsinə səbəb olub. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan dövlətlərarası münasibətlərdə hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq mövcud münasibətlər keyfiyyətcə yeni müstəviyə keçib.

Azərbaycan və Türkiyənin təşəbbüsü ilə ölkələrimiz və bütövlükdə bölgə üçün önəmli bir sıra layihələr həyata keçirilir. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına təsirini göstərir. Türkiyə ilə Azərbaycan arasında siyasi, hərbi, iqtisadi, ticari, mədəni sahələrdə olan münasibətlər, həyata keçirilən tədbirlər, imzalanan müqavilələr xüsusi mərhələnin əsasını qoyub.

Bakı-Tbilisi-Ceyhanneft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və s. layihələr bu baxımdan təqdirəlayiqdir. İki ölkənin təşəbbüsü ilə həyata keçirilən digər beynəlxalq əhəmiyyətli layihə TANAP Türkiyə və Avropa Birliyi ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətlidir.

## "BU GÜN ŞUŞADA DALĞALANAN AZƏRBAYCAN VƏ TÜRKİYƏ BAYRAQLARI BİZİM BİRLİYİMİZİ GÖSTƏRİR"

Türkiyə Prezidentinin 44 günlük Vətən müharibəsi zamanı çıxışlarında səsləndirdiyi fikirlər, atdığı qətiyyətli addımlar, Azərbaycanın yanında olması bu dostluğun, qarşılıqlı münasibətlərin göstəricisidir. Əsl qardaşlıq münasibəti dünyaya nümunəyə çevrildi. Təbii ki, bu münasibətlər qarşılıqlıdır.

Dövlət başçısının qeyd etdiyi kimi, "Bütün məsələlərdə, beynəlxalq arenalarda Azərbaycan daim Türkiyənin haqq işini dəstəkləyir. Elə bir məsələ olmayıb və əminəm olmayacaq ki, Azərbaycan öz dəstəyini Türkiyəyə göstərməsin. Hazırda bölgədə gedən bütün proseslərdə birmənalı şəkildə Azərbaycan dövləti və Azərbaycan xalqı Türkiyə dövlətinin və xalqının yanındadır".

Ötən ilin iyunun 15-i Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu. Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi oldu və

dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir.

"Bu gün imzalanmış Birgə Bəyannamə - Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır", - deyən Cənab Prezident bildirib ki, Bəyannamənin adı Müttəfiqlik haqqında Bəyannamədir və bu ad özü-özlüyündəhər şeyi göstərir, hər şeyi deyir: "Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır". Dövlət başçısı "Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir", deyərək bildirib ki, azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir.

Sənəddə beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticari əlaqələr, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan və Avropa üçün önəmi göstərilməklə yanaşı, müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapır. Heç kəsə sirr deyil ki, bu gün işğaldan azad olunan torpaqlarımızda Azərbaycan və

Türkiyə bayraqları dalğalanır. Cənab Prezidentin vurğuladığı kimi, "Bu gün Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqları bizim birliyimizi göstərir".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Xaçaturyan Paşiyanın "kukla"sı rolunda...



***Ermənistan parlamenti səsvermənin birinci turunda ölkə prezidentini seçə bilməsə də, ikinci cəhddə istəyinə çatdı. Daha doğrusu, Paşinyanın arzusu çin oldu, marionet prezidenti nəhayət "taxtında" oturda bildi.***

Bəs Baş nazirin məqsədi nədir, niyə Xaçaturyanın seçiminə bu qədər sevinir? Bu barədə bir az sonra Vaaqn Xaçaturyanın namizədliyinin lehinə 69 deputat səs verib ki, bunların da hamısı Paşinyanın parlamentdəki blokunun üzvləridir. Amma prezidentin birinci turda seçilməsi üçün 81 səs tələb olunurdu. Müxalifətdə olan "Ermənistan" və "Mənim namusum var" fraksiyaları seçkiləri boykot etdiyinə görə, lazımi səs toplamaq yeganə namizəd olan Xaçaturyana nəsib olmayıb. Səsvermənin ikinci turunda Ermənistan prezidenti 65 səslə seçilə bilərdi və bud a baş Verdi. Ermənistanın yeni prezidenti Xaçaturyan oldu. Beşinci prezidentin andiçmə mərasimi seçkidən sonra onuncu gün parlamentin növbədənkənar iclası zamanı baş tutacaq.

Xaçaturyan Ziqmund Freydin sözlərini sitat gətirərək deyib ki, əksər insanlar həqiqətən azadlıq istəmir, çünki bu, məsuliyyəti nəzərdə tutur və insanların çoxu məsuliyyətdən qorxur. Onun sözlərinə görə, hakim fraksiya deputatları məsuliyyətdən qorxmayan insanlardır: "Biz həmişə sınaqdan keçirik, lakin bu sınaqlardan qalib çıxmalıyıq. Bu, bizim vəzifəmizdir və əminəm ki, biz buna nail olacağıq.

Vaaqn Xaçaturyan Smitdən sitat gətirərək dövlətin necə olması, hansı prinsipləri rəhbər tutması, hansı ideyaları həyata keçirməsi barədə də danışıb.Yeni prezidentin hansı şəraitdə seçildiyini və Smitdən, Freyddən sitatlar gətirməklə, özünü erməni cəmiyyətinə sırımaqla o qədər də ağıllı olmadığını, hər an Paşinyanın əmrinə müntəzir duracağını büruzə verir. Xaçaturyan Ermənistanın müstəqillik əldə edəndən bu yana rəhbərlik etdiyi bütün klanlarla, çetələrlə birgə işlədiyini nəzərə alsaq Vaaqn neçə sifətli olduğu da ortaya çıxar. Bəs yeni prezidenti belə bir ağır dönəmdən, 44 günlük müharibədəki məğlubiyyətdən hələ də özünə gələ bilməyən Ermənistanda hakimiyyətə gətirən, əcəba, nədir?Məsələ burasındadır ki, Ermənistan bu gün özünü və öz başını güclə qoruyur. Müharibənin təsirindən, bizdən yediyi yumruqdan hələ də ayıla bilməyib. Rəhbərlikdə təmsil olunanların indiki hakimiyyətə qoyduqları mirası da gözümüzün qarşısına gətirsək, "hay"ların çox pis durumda olduqları qənaətinə gələ bilərik. Bir sözlə, indiki vəziyyət prezidentə yaxşı heç nə vəd etmir. Xaçaturyan Paşinyana bəzi hüquqi prosedurları həyata keçirmək üçün "kukla" statusunda lazımdır. Xaçatryan mütləq prezident institutunun birləşdirici rolunu oynamayacaq. Amma o, Paşinyanın bütün kağızlarına imza atacaq, onun zəif iradəli və əmrə müntəzir iti olacaq.Qızğın Rusiya-Ukrayna müharibəsi fonunda Ermənistan prezidentinin Parlamentdə seçkiləri keçirildi. Cəmiyyətin Ermənistan prezidentinin seçilməsi proseduruna biganə münasibətini başa düşmək olar. Serj Sarkisyanın konstitusiya islahatlarından sonra bu post simvolik oldu, gücsüz oldu. Tez-tez Böyük Britaniya kraliçası vəzifəsi ilə müqayisə olunsa da, burada müqayisə tamamilə yersizdir. Və səbəbini izah edəcəyəm. Böyük Britaniyada kraliça hökm sürür, lakin hökmranlıq etmir, lakin kral taxtı ingilislərin çox əziz tutduqları tarixi simvoludur. Bundan əlavə, Böyük Britaniyanın monarxları hələ də ölkənin həm siyasi, həm də ictimai həyatına təsir göstərir, hökumət dövlət üçün ən vacib qərarları qəbul edərkən, müəyyən dərəcədə, son sözə sahibdirlər. Və ümumiyyətlə, Kraliça Elizabet İngiltərədə sevilir. Bəs Ermənistanda? Əvvəlki prezident zəif iradəli, nə öz maraqlarını, nə də vətəndaşların mənafeyini müdafiə edə bilməyən adam idi.O, prezidentliyinin çox hissəsini Ermənistandan kənarda keçirib. Hər kəs ayaqlarını onun üzərinə sildi. Heç kim onu adam hesab etmirdi. Yada salaq ki, baş nazir Paşinyan Sarkisyana Qarabağda üçtərəfli atəşkəs bəyanatının imzalanması, əslində kapitulyasiya aktı barədə məlumat verməkdən belə çəkinmədi. Sarkisyan da Ermənistanın adi vətəndaşları kimi bu barədə gecə yaydığı xəbərdən xəbər tutub. Sonda ölkədə heç nəyə təsir etmədiyini başa düşən Sarkisyan postunu tərk etdi.

İndi o postu Vaaqn Xaçatryan tutacaq. Müxalifətçilər artıq acı zarafatla deyirlər ki, bu adamı Nikol Paşinyan seçib və prezident postunda Paşinyana işləyəcək, baş nazir isə hər şeyi təkbaşına həll etdiyinə görə qərar verməkdə davam edəcək. Xaçatryana gəlincə, Paşinyan da tam sakit ola bilər - o, heç bir sürpriz təqdim etməyəcək. Bəli, Xaçatryanın özü də işdə və onsuz da hər yerdə sübut edir, hakim siyasi komandanın üzvü olduğunu açıq şəkildə bəyan edir. Yəni, partiyadan yuxarı arbitr, qərəzsizlik, təmkin, əks tarazlıq - bütün bunlar ona aid deyil. Xaçatryan mütləq prezident institutunun birləşdirici rolunu oynamayacaq. Amma o, Paşinyanın bütün kağızlarına imza atacaq, onun zəif iradəli və razı iti olacaq. Və bu mübaliğə deyil.Hələ prezidentlik kürsüsünə gəlməmişdən əvvəl Xaçatryan Türkiyə və Azərbaycanla "sülh" məsələsində artıq Paşinyanla razılaşmağa başlamışdı. Necə ki, regionda sabitliyin bərqərar olmasına çalışmalıyıq ki, sülhə alternativ yoxdur. Qarabağda 44 günlük müharibə bunun ən yaxşı təsdiqi oldu.

Budur Paşinyanın mantraları. Xaçaturyan iqtisadiyyatın inkişafı üçün korrupsiyanın azaldılmasını, rəqabətin artırılmasını, yüksək texnologiyalı iqtisadiyyatın inkişaf etdirilməsini, yolların açılmasını vacib hesab edir. Yüksək texnologiyalı iqtisadiyyat? Maraqlıdır, o, yüksək texnologiyalar sənayesi naziri kimi nə edib? Onun bu istiqamətdə uğurları olubmu?Artıq Xaçatryanın bəyanatından aydın olur ki, o da Paşinyan kimi onların uydurduğu, Ermənistanın ən azı müharibədən əvvəl olduğu dünyada yaşayır və baş nazirin 2050-ci ilə qədər strateji proqramını həyata keçirmək potensialına malikdir. Düzünü desək, hələ müharibədən əvvəl bu proqram absurd görünürdü. Hətta Ukraynadakı müharibə, dinc Ukrayna şəhərlərinin bombalanması bu ölkənin erməni icmasını öz tarixi vətənlərinə qayıtmağa məcbur etmədi. Əksinə, Ermənistana müvəqqəti gələnlər də geri döndü. Qalanların hamısı ya Ukraynanı müdafiə etmək üçün qaldı, ya da bu məqamdan yararlanıb Ukrayna sakinlərinə qapılarını açan Avropaya köçdülər.Sanksiyalar nəticəsində Rusiyada sosial-iqtisadi vəziyyətin pisləşməsi dünyanın ən böyük erməni icmasını Ermənistana köçməyə sövq edəcəyinə də ümid yoxdur. Rusiya sanksiyalarında olan ermənilər üçün nə qədər ağır olsa da, orada həyat yenə də Ermənistandakından yaxşı olacaq. Bu bir faktdır.

Ermənistanda yenə at izi it izinə qarışıb. Vəziyyət o dərəcədə acınacaqlıdır ki, Ukrayna və Rusiyada gedən müharibə də erməniləri boşalan Ermənistana cəlb edə bilmir. Ayağını yerə bərk basan Ermənistanı mümkün qədər tez tərk edir. İşğalçı, qonşularına qarşı ərazi iddiaları irəli sürən bu ölkəni yalnız ağıllı insanlar xilas edə bilər. O da Ermənistanda yoxdur...

***V.VƏLİYEV***

# Ermənilər Ukrayna müharibəsindən nəticə çıxarırlar: artıq “sınaq daşı” atılıb

***Ermənistan Ukraynada baş verən müharibə nəticəsində hansı siyasi-iqtisadi və s. cəhətlərdən zərbələrə məruz qalacağını hesaba almağa başlayıb. Ölkədə yaşanan ciddi təlaşla yanaşı, həm də sonrakı proseslər üzərində müxtəlif fikirlər səsləndirilir və onların hər biri pessimizmlə müşahidə olunur. Bu xüsusda daha çox yazan isə əlbəttə ki, mətbuatdır.SİA xəbər verir ki, sözügedən mövzu ilə bağlı armenianreport saytı müxtəlif proqnozlarını irəli sürməklə cərəyan edən hadisələrin Ermənistana və erməni xalqına yaxşı heç nə vəd etmədiyini yazıb.***






*Armenianreport: "Azərbaycanlılar Rusiyanın müharibə nəticəsində zəifləməsini və bu ölkəyə qarşı tətbiq ediləcək sanksiyaların hansı nəticələrə gətirib-çıxaracağını hiss edərək özlərini daha sərt şəkildə aparacaqlar"*





## ”Rusiyanın iqtisadiyyatı Latın Amerikası səviyyəsində olacaq”

Misal üçün, Ukraynada davam edən müharibənin Ermənistana hansı iqtisadi zərbə vuracağı ilə bağlı qeydlər aparan erməni saytı bildirir ki, müharibə ilk növbədə ”spryuka” (diaspora) zərbə endirəcək. SİTAT: ”Sirr deyil ki, bizim həmvətənlərimizin çoxu vətənlərində hərbi xidmət keçməmək üçün Ermənistandan Rusiyaya köçüblər. Onlar Qarabağa, ya da sərhədlərə göndərilmək riskindən özlərini sığortalayıblar. Onların valideynləri hesab edirdilər ki, övladları rus ordusunda bir il xidmət keçməklə hərbi biletlərini alacaq və yaşayacaqlar... İndi isə bu olmayacaq. Hərbi xidmətdə olmusan? Onda çıx bana. O hərbi yük maşınının banına ki, üzü Ukraynaya tərəf gedir”.Erməni saytı erməni iş adamlarını da gözləyən acınacaqlı vəziyyətdən yazır. ”İş adamları üçün də yaxşı günlər gözlənilmir. Rusiya elə bir sanksiyalar altında qalıb ki, hətta dünyanın ən təcrid edilmiş ölkələri belə sanksiyalara məruz qalmayıblar. Rusiyanın iqtisadiyyatı Latın Amerikası səviyyəsində olacaq”, deyə armenianreport erməni iş adamlarının Rusiyadakı ağır aqibətlərini proqnozlaşdırıb.

Digər bir amilə də toxunan erməni media qurumu proqnozlaşdırır ki, yoxsulluq və acınacaqlı həyat fonunda rus millətində şovinizm hissləri baş qaldıracaq və onlar həmin acı və çıxılmaz hisslərini xarici miqrantların, o cümlədən ermənilərin üzərinə boşaldacaqlar.Armenianreport Ukraynadakı ermənilərin də acı aqibətlərini proqnoz edib və eyni zamanda, Rusiya və Belarusda yaşayan ermənilərin də bənzər vəziyyətlə üzləşəcəklərini bildirib. Qeyd olunub ki, onların Ermənistanda yaşayan qohumları həmin ölkələrə pul köçürməkdə ciddi problemlərlə üzləşəcəklər. Lakin ən maraqlısı..!

Azərbaycan Ordusunun Xramort kəndinə doğru səsgücləndirici vasitəsi ilə xəbərdarlıq etməsi faktını xatırladan armenianreport həmin olayı ermənilərə tərəf atılan ”sınaq daşı” kimi qiymətləndirib

Ən maraqlısı isə əlbəttə ki, ermənilərin bu vəziyyətdə Azərbaycanın necə davranacağı ilə bağlı fikirləridir. Çünki o da sirr deyil ki, ermənilər hər yerdə, əllərində olan hər imkanlarında dərhal Azərbaycan faktorunu qabardaraq əslində nə qədər təlaşlar, narahatlıqlar keçirdiklərini açığa çıxarmış olurlar.Gəlin yalnız bir ifadəyə diqqət yerirək. ”Azərbaycanlılar Rusiyanın müharibə nəticəsində zəifləməsini və bu ölkkəyə qarşı tətbiq ediləcək sanksiyaların hansı nəticələrə gətirib-çıxaracağını hiss edərək özlərini daha sərt şəkildə aparacaqlar”, deyə qeyd edən erməni saytı əlavə edir ki, azərbaycanlılar Rusiyanın ikinci cəbhə aça bilməyəcəyini anlayaraq bu addımlarını atacaqlar. Onlar hətta buna misal da gətiriblər. Belə ki, bir neçə gün əvvəl Azərbaycan Ordusunun Əsgəran yaxınlığında, hazırda erməni separatçılarının yerləşdikləri və orada hərbi məqsədli səngərlər, istehkamlar hazırladıqları Xramort kəndinə doğru səsgücləndirici vasitəsi ilə xəbərdarlıq etməsi faktını xatırladan armenianreport həmin olayı ermənilərə tərəf atılan ”sınaq daşı” kimi qiymətləndirib.

Beləliklə, artıq ermənilər özləri Ukraynadakı vəziyyətin onlara necə təsir göstərdiyini açıq-aydın ifadə edirlər və eyni zamanda, çıxılmaz dalana söykəndiklərini etiaf edirlər. Bu zaman düşünməli və nəticə çıxarmalı da məhz ermənilər olmalıdırlar, nə qədər ki, gec deyil...

**Rövşən RƏSULOV**







ANALİTİK - AKTUAL

***Dünyada qohum nikahların sayı azalmaq əvəzinə getdikcə artır. Təsəvvür edin ki, dünya üzrə bağlanan nikahların 20 faizə yaxını qohumluq əlaqələri olan nikahlardır. Faiz nisbəti ilə götürsək hər il dünyada doğulan körpələrin 8.5 faizi qohum nikahlarından doğulan körpələrdir. Azərbaycan kimi qohum nikahlara üstünlük verən ölkələrdə fiziki qüsurlu uşaqların doğulma tezliyi də sıx-sıx rastlanır.Qohum nikahlarına görə dünya ölkələri arasında liderlik edən ölkələr Hindistan, Misir və Türkiyədir. Türkiyədə bağlanan nikahların 30 faizi qohum nikahlarıdır. Azərbaycana gəldikdə isə, ölkəmizdə bağlanan hər 100 nikahdan 20-si qohum nikahıdır. Bu dünya miqyasında yüksək göstəricilərdən sayılır.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Qohum evliliklər hansı probemlərə səbəb olur?



Bizdə çox maraqlı bir el məsəli də var, deyir ki, "qızın yaxşısını yada vermə, heyifdir, pisini də vermə, eyibdir". Və ya "qohum ətini yesə də sümüyünü çölə atmaz" tipli məsələr var. Bunlar isə bu tendensiyanın davam etməsində milli psixoloji təsirin rolunun böyük olduğunu göstərir.

Ölkəmizdə qohum nikahları bir çox səbəbdən bağlanır. Birinci səbəbi qohumdan qız almaqla evdə sabitliyi qorumaqdır. Belə düşünülür ki, əgər qohumdan qız alınsa evdə qaynana-gəlin konfilikti olmaz. İkinci səbəbi odur ki, qohumla qohum olanda toy və nişan xərclərində qarşılıqlı güzəşt olunur. Qohumdan alınan qız bahalı kürk istəməyə, brilliant qaşlı boyunbağı istəməyə utanır. Qızın ailəsi oğlan tərəfin daha dəbdəbəli toy etməsini tələb etmir, oğlan evi daha cah-cəlallı cehiz istəmir, çünki arada qohumluq var, çəkinirlər. Üçüncü bir səbəb də odur ki, tərəflər qohumluq əlaqələrinin daha da möhkəmlənməsi üçün qohum nikaha üstünlük verirlər. Daha bir səbəb isə odur ki, indiki dövrdə insanlar çox dəyişib, onları tanımaq çətindir, qohum uşaqlarını isə lap körpəlikdən gözlərinin qarşısında böyüdüyü üçün yaxşı tanıyırlar.

Problemi aradan qaldırmaq çox çətindir. Çünki insanların çoxu qohum nikahların fəsadları barədə məlumatlı deyil, bu haqda alimlərin, həkimlərin dediklərinə isə qulaq asmır. Məlumatları olanlar da bunu heç vecinə də almır. Üstəlik gözlərinin qarşısında digərlərinin belə nigahlardan qüsurlu uşaq dünyaya gətirdiklərini gördükləri halda. Bu haqda onlara deyiləndə isə, cavab verir ki, sən Allahdan çox bilirsən? Hər bədbəxtliyi Allahın adına yazmaq çıxış yolu deyil. Allah sənə ağıl verib, dərrakə verib, bilmirsən soruş öyrən, gör dünyada nə qədər əlil uşaq var ki, valideynləri yaxın qohumdur.

Azərbaycanda əlillərin və fiziki qüsurluların (anadangəlmə kəkələmə və s.) 1/3-i məhz qohum nikahlarından doğulanlardır. Bu insanların günahı nədir? Savadsız valideynin cəzasını körpələri çəkir. Qohum nikahlar bacı-qardaş evliliyi kimi bir şeydir. Çünki onlar eyni genin daşıyıcılarıdır. İrsi xəstəliklər də məhz bu qohum nikahlarından sonra inkişaf edir.

Bu sahədə maarifləndirmə işləri heç bir nəticə vermir. Problemin həlli yalnız məcburi qaydada mümkündür. Qadağa tətbiq edilməsə bizim ölkədə də vəziyyət kritik olacaq. AR Ailə Məcəlləsinə görə, qohum nikahları ölkəmizdə qadağandır. Amma orada 1-ci dərəcəli yaxın qohumlar- valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey qardaş və bacılar nəzərdə tutulur. Yaxşı olar ki, bu siyahıya əmi, bibi, xala və dayıuşaqlarını da əlavə etsinlər.

Ölkəmizdə böyük bir Talessemiya Mərkəzi tikilib, bilirsinizmi niyə? Talessemiya ağır irsi qan xəstəliyidir. Əgər qohum nikahı bağlayan hər iki fərdin bu irsi xəstəliyi varsa xəstəlik onların uşaqlarında özünü büruzə verir. Ailə tanıyıram ki, 3 uşağı var, 3-ü də talessemiya xəstəsidir. Çünki qohum nikahıdır. Yaxın qohumlar arasında bağlanan nikahlar nəticəsində doğulan uşaqlar genetik xəstə olurlar. Əgər əvvəllər də eyni nəsildə yaxın qohumlar arasında nikahlar bağlanıbsa, uşağın xəstə doğulması riski daha da artır. Beləliklə nikaha daxil olmuş qan qohumlarının genetik xəstəliklərə yol açma riski olduqca yüksəkdir.

Normalda əmiuşaqları, xalauşaqları, bibiuşaqları və dayıuşaqları bir növ bacı-qardaş sayılmalıdır. Üstəlik, ailə qarşılıqlı sevgi üzərində qurulmalıdır, qohum olduqlarına görə deyil. Təcrübə də göstərir ki, qohum evliliklərin çoxu bir-birini sevmir, valideynlərinin təkidi ilə evlənmiş olur ki, bu halların da çoxu boşanma ilə nəticələnir.

Son illərdə bir qədər azalsa da, hələ də ciddi bir paya sahibdir. Gənclərə indi daha çox sərbəstlik verilməsi, onların həyat yoldaşı seçmə işinə valideynlərin çox qarışmaması qohum evliliklərini azaldır, lakin bu da başqa bir problemə səbəb olur ki, o bu yazının mövzusu deyil. Söhbət gənclərin ötəri hiss əsasında, bir-birini yaxından tanımadan, bir-birinin mənəvi tərəflərinə yox, maddi cəhətlərinə üstünlük verməklə qısa müddətdə evlənməsindən gedir ki, bu daha geniş bir mövzudur. Bu haqda növbəti yazımızda danışacağıq.

***Lalə Mehralı***

# Reytinq xatirinə lazımsız reklamlar verirlər - EKSPERT İRAD BİLDİRDİ



***"Azərbaycan telemәkanında çox böyük problemlər var. Əslində, cəmiyyətin intellektual səviyyəsindən asılı olaraq onun televiziya efirində də səviyyəli, zövqlərə cavab verən, intellektual və kreativ baxışları özündə əks etdirən proqramlar hazırlanır". Bu sözləri SİA-ya açıqlamasında yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov deyib.Onun sözlərinə görə, qonşu ölkələrlə müqayisədə Azərbaycanda televiziyaların həddindən artıq bayağı və zəif verlişlər hazırlaması göz önündədir: "Bayağı, zəif, ekspertlərin artıq getmədiyi və yalnız pullu ekspertlərin tez-tez dəvət edildiyi efirlərdə, əlbəttə ki, dava da, qalmaqal da olacaq.***

Həmçinin belə pulla qidalanan verlişlərdə reytinq xatirinə lazımsız reklamlar verirlər.

Baxın, harada atasından anasından bixəbər, əxlaqsız, ərini-arvadını atan, xəyanət edən varsa onları sosial verlişlərdə qəhrəman kimi xalqa sırıyırlar. Hanı qazilərin, şəhid ailələrinin problemi ilə məşğul olan sosial verlişlər?! Hər şeyi dövlətin boynuna atırlar. Tanınmış və mədəniyyət xadimləri var ki, onların maddi vəziyyəti bərbaddır. Onlar maaş almır".

Aydın Xan Əbilov sözlərinə belə davam edib: "Gənclərin və azyaşlıların mənəviyyatını pozan verlişlərə yox demək lazımdır. Klassik telekanallar yavaş-yavaş tarixin bir küncünə gedir. Mən inanmıram ki, yeni nəsil bu verlişlərə baxır. Amma yenə də insanlar təbiətən qalmaqala, davaya meyilli olublar.

Biz bunlarla bağlı dəfələrlə aidiyyatı qurumlara müraciət etmişik. Telekanallara, internet resurslarına nəzarət edən qurumlar yaratmaq lazımdır. Öz adamlarını, qohum-əqrəbalarını dövlət qurumlarına gətirib salırlar. Onlar heç bir




nəzarətedici funksiya daşımırlar. Çünki onların özlərinə də müəyyən mənada paket göndərirlər, pul verirlər.

Bu davalarla, qalmaqallarla Azərbaycan tamaşaçısını qaçırırlar. Onlar öz kanallarımızdan üz döndərib xarici kanallara üz tutur. Kanallar öz səviyyə və simasını itirirlər. Azsaylı verlişlər var ki, həqiqətən maarifləndiricidir.

Verlişdəki ekspertləri ailəsindən bixəbər insanlar söyür. Ona görə də bir çox ekspertlər telekanallardan üz döndərir. Bir çox ekspertlərin müxtəlif kanal efirlərində iştirak etməsi kanallar arasında rəqabət mühiti yaradır. Buna görə də biz səviyyəli verlişlərə həsəd qalmışıq".

***Ayşən Vəli***

*2 mart 2022-ci il tarixində SİA-da Corc Sorosun nəzarətində olan USAİD-in və birbaşa onun tabeçiliyində olan Şərq-Qərb İdarəetmə İnstitutunun növbəti fırıldaqçılıq cəhdini ifşa edən geniş xarakterli və faktlara əsaslanan "USAİD-in Azərbaycan əleyhinə növbəti fırıldağı!" sərlövhəli analitik məqalə dərc olunub.*

# Soros "SƏS"in ifşalarına davam gətirə bilmədi!




## *Onun anti-Azərbaycan fəaliyyəti göstərən təşkilatlarını dəlil və sübutları ilə ifşa edən portala qarşı kiberhücum cəhdi edildi*

https://sia.az/az/news/politics/936249.html

Görünür, adıçəkilən məqaləmiz birbaşa hədəfə dəyib. Məlum olub ki, SİA-nın məqalələrini işıqlandıran, milli-dövlətçilik ənənələrindən çıxış edən, o cümlədən, ölkə rəhbərliyinin uğurlu siyasi fəaliyyətinin təbliğatını aparan ewmi.az veb səhifəsi kiberhücum cəhdinə məruz qalıb.Daha dəqiq desək, məqalə işıq üzü gördükdən bir gün sonra məhz USAİD-in mərkəzi ofisindən verilən tapşırıq nəticəsində (artıq buna heç cür şübhə də qalmır) ŞQİİ-nun Bakı ofisinin əməkdaşları veb səhifəsini ələ keçirməyə cəhd etməklə orada gedən bütün yazı və məqalələrə qarşı, sözün əsl mənasında, savaş açıblar. Beləliklə, məhz milyarder və siyasi dələduz Corc Sorosun çoxsaylı kirli əməllərinin, siyasi cinayətlərinin ifşası məqsədi ilə fəaliyyət göstərən, xüsusilə, səhifələrində möhtərəm Prezident İlham Əliyevin Soros haqqına çıxışlarını cəmləşdirən və təbliğ edən vebsəhifə açıq-aşkar kiberhücum cəhdinə məruz qalıb.Olay isə bu cür baş verib: belə ki, ŞQİİ-nun Bakı ofisinə malik olan +994 12 5952769 nömrəli telefondan veb səhifənin təminatçısına zəng edərək özlərini səhifənin sahibləri kimi təqdim edən ŞQİİ-əməkdaşları, həmin səhifəyə giriş kodlarını tələb ediblər (?!).

Lakin təminatçı zəng edənlərdən səhifə sahibliyinə dair sənədləri təqdim etməyi tələb etdikdə, onlar nədənsə (?!) geri çəkiliblər. Bunun ardınca isə planlarının baş tutmadığını görən ŞQİİ-nin İKT mütəxəssisləri "bərpa et" funksiyasında istifadə edərək, israrla veb səhifəni qanunsuz olaraq, yəni faktiki olaraq cinayət əməli törətmək məqsədi ilə ələ keçirmək üçün cəhdlərini davam etdirməyə çalışıblar.Göründüyü kimi, hədəfə aldıqları ölkələrdə, o cümlədən, Azərbaycanda özlərinin "azad söz və ifadə vurğunları", "demokratiya mücahidləri" və ya "humanizm carçıları" kimi təqdim edən USAİD və ŞQİİ adlı anti-Azərbaycan xarakterli təşkilatlar, əslində, tam əksinə olaraq azad fikri boğmağa, həqiqətləri gizlətməyə, öz qaranlıq əməllərinin ifşasının qarşısını almaq üçün hətta başqalarına məxsus olan şəxsi məlumatları mənimsəməklə kibercinayət əməllərinə qədər getməyə hazır olduqlarını isbatlayırlar!

Söz yox ki, Azərbaycan azad, hüquqi və demokratik cəmiyyətə malik olan güclü dövlətdir və bu kimi addımların qarşısı zaman-zaman alınır və bundan sonra da alınacaqdır. Kibercinayətkarlıq əməllərinə yol verənlər isə aşkarlanaraq qanun qarşısında cavab verməli olacaqlar.

***Rövşən RƏSULOV***






***İqtisadçı ekspert Aleksandr Razuvayev Qərbin Rusiyaya qarşı iqtisadi sanksiyalarının Moskvanı yeni geosiyasi və geoiqtisadi birliklər yaratmağa necə sövq edəcəyi barədə proqnozlarını "Moskva-Baku" portalına müsahibəsində şərh edib. Müsahibənin tərcüməsini oxucularımıza təqdim edirik.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Aleksandr Razuvayev: Rusiya və Azərbaycanın da olduğu Şərq iqtisadi bloku yaranacaq

**Ukrayna ətrafında yaranmış vəziyyətlə bağlı Qərbin ən sərt reaksiyası fonunda Moskva Azərbaycan və Rusiya arasında imzalanmış müttəfiqlik əməkdaşlığı haqqında Bəyannaməyə və bir sıra dövlətlərin, həmçinin İran, Çin və Türkiyənin hadisələrə balanslı reaksiyasına diqqət yetirməyə bilməz. İndi Rusiya üçün ən məntiqli vektorun (yəqin ki, prinsipcə son illərdə olduğu kimi) Şərqə doğru hərəkət olacağını güman etmək olarmı? Həm geosiyasi mənada, həm də konkret iqtisadi addımlarda?**

- Müasir Rusiya Federasiyasının sərhədləri Qızıl Ordanın sərhədlərinə çox bənzəyir. Rusiyanın tarixi bir çox cəhətdən rus-türk dünyasının tarixidir. Müasir Rusiya Federasiyası, ilk növbədə, Şərqdir. Lev Qumilyovun yazdığı kimi, şeylərin məntiqi anlayışı var. Baş verən hadisələrə əsasən, Rusiya tamamilə şərq ölkəsinə çevrilir. Türkiyə kimi, İran kimi, Azərbaycan kimi. Çünki Avropa, Qərblə bizim ya qarşıda heç bir münasibətimiz yoxdur, ya da bıçaq nöqtəsindədir.

Şərqə dönüş Rusiya üçün təbiidir. Türk dünyasının bir parçası da Rusiyadadır. Mən tam etiraf edirəm ki, gələcəkdə Türkiyə və Azərbaycan Avrasiya İqtisadi Birliyinə, Rusiya isə Türk Dövlətləri Təşkilatına daxil olacaq, əslində bu, olmalıdır. Fikrimcə, yaxın bir neçə ildə bu ehtimal yüksəkdir. Bu isə çox düzgündür - həm iqtisadiyyat baxımından, həm də təhlükəsizlik baxımından. Avropa İttifaqı onilliklərdir ki, Türkiyənin Aİ-yə üzvlüyündən imtina edir. Ünsiyyət və danışıqlar təcrübəsi göstərir ki, xüsusən də Rusiya və Türkiyə hər zaman razılığa gələ biləcəklər. Və hesab edirəm ki, şərq bloku 2 struktur- Avrasiya İttifaqı və Türk Şurası vasitəsilə formalaşmalıdır. Biz Avrasiya sivilizasiyasıyıq. SSRİ-nin dağılması zamanı Lev Nikolayeviç Qumilyov deyirdi ki, əgər Rusiya fövqəldövlət kimi yenidən doğulacaqsa, onda yalnız Avrasiya dövləti kimi doğulacaq. Bu, rus-türk dünyasıdır. Amma bu, ilk növbədə vahid bazardır və danışıqlar aparmaq imkanıdır.

Avropa İttifaqı avropalıların bir-birini sevdiyi üçün deyil, suveren iqtisadi güc mərkəzi yaratmaq məqsədi ilə birləşdi. Bu gün Rusiya və tərəfdaşları Avropa İttifaqının analoqunu yarada bilərlər. Amma türk dünyası olmadan bu tam işləməyəcək. Belə bir gözəl rus atalar sözü var: "Ağıllı ilə uduzmaq, axmaqla qazanmaqdan yaxşıdır". Mən həmişə demişəm ki, iqtisadiyyat baxımından Azərbaycan Avrasiya İttifaqında olmalıdır, Ermənistan yox. Bu, iqtisadiyyatın tamam başqa ölçüsüdür, liderin adekvatlığıdır, Azərbaycan həmişə xüsusi statusa malik olub, Rusiya və İranla ticarət aparan tranzit ölkədir. Farsların çox ağıllı olduqları danılmaz olsa da...

Allaha şükürlər olsun ki, Rusiya və Azərbaycan Müttəfiqlərin Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzaladılar. İndi Azərbaycan Rusiyanın Cənubi Qafqazda əsas müttəfiqidir. Adi ruslar üçün bu, başqa bir çox maraqlı şey deməkdir. İndi xəbəri açırsan- görürsən: Qərb brendləri Rusiyanı tərk edir və bəziləri üçün bu belə dəhşətdir. Bu halda, Azərbaycan ticarət turizmini inkişaf etdirə bilər. Məsələn, həqiqətən kiminsə miak üçün iPhone almağa ehtiyacı varsa, Bakıya gedə bilərsiniz. Bu gün Azərbaycanda hər şey qaydasındadır. Azərbaycan manatı sabit valyutadır. Ruslar da bundan istifadə edə bilərlər.

**- Ümumiyyətlə, Ukrayna hadisələrindən əvvəlkindən də artıq formalaşmaqda olan antitıq əvəzə-əvəz prinsipidir.**

Əsasən iqtisadiyyatın birləşdirdiyi Şərq bloku məhz XXI əsrin imperiyasıdır. Avropa İttifaqı kimi. Məncə öyrənmək ayıb deyil. Və biz Aİ-nin vahid valyutası ilə necə qurulduğuna diqqət yetirməliyik. Biz vahid iqtisadiyyat və şərq blokumuzu formalaşdırmalıyıq. Millətlərüstü strukturlar olmalıdır.

**- Bu gün bütün baş verənlərlə əlaqədar olaraq Cənubi Qafqazda və daha sonra Türkiyə, İran, Rusiyada nəqliyyat-iqtisadi əlaqələrin blokunun açılması məsələsi nə dərəcədə aktuallaşır? Bu gün Ermənistanda yeni, iqtidaryönlü prezident seçilib. Qərb koalisiyasından nə qədər danışmaq olar?**




- Mən Rusiya-Azərbaycan-Türkiyə üçbucağına həqiqətən inanıram. Eyni zamanda, mən hesab edirəm ki, Avrasiya İqtisadi İtifaqının bütün ölkələri, üstəlik Azərbaycan və Türkiyə, mənim adlandırdığım kimi, şərq koalisiyasına mütləq qoşulacaqlar. İran, qeyd etdiyim kimi - farslar - öz fikirlərində olsalar da, kifayət qədər ziddiyyətlidirlər. Əgər işə yararsa, yaxşıdır. Monqolustanla tamamilə razıyam. Mən Serbiyanın, Macarıstanın üzvlüyünü tamamilə qəbul edirəm. Bəlkə hətta Kuba da qoşula bilər. Özbəkistan - özbəklər indi dünyanın bəlkə də ən dinamik iqtisadiyyatına malikdirlər, həmçinin Belarusiya. Belə bir blokun yaradılması 3 ildən 5 ilə qədər olan müddətdə mümkündür. Məncə, mütləq baş verəcək.

Mənim fikrimcə 21-ci əsrin imperiyası 19-20-ci əsrlərdəki imperiyalar deyil. Bu, ilk növbədə əmək, kapital və vahid valyuta üçün vahid bazardır. Əgər birdən Rusiya Bankının ehtiyatları dondurulsa, o zaman şərq koalisiyasının vahid valyutasından danışmaq olar. Əslində, Rusiya özü Qərbin aktivlərini dondurdu. Və burada ar-

**Və o, Ermənistanla Azərbaycan arasında sülhün vacibliyinə dair açıqlamaları ilə tanınır, xüsusən də dünən regionda kommunikasiyaların açılmasının vacibliyi ilə bağlı bəyanat verib.**

- Əslində, qeyd etmək istərdim ki, Rusiyada, Fransada, ABŞ-da zəngin erməni diasporları var. Əgər onların nümayəndələri, rəhbərləri vətənpərvər olsalar və öz ölkələrinə- Ermənistana sərmayə qoysalar, ondan səmərəli dövlət yarada bilərdilər. İsrail 30 ildə çox təsirli bir ordusu, nüvə silahı olan çox təsirli bir dövlət qurdu. Amma Ermənistan yaratmadı, heç nə qurmadı. Və bu, ilk növbədə xaricdəki erməni diasporu üçün siqnaldır.

Əlbəttə, yaxşı haldır ki, Ermənistanın yeni prezidenti belə fikirlər səsləndirir, amma əməli hərəkətlər vacibdir, qonşularla sülhə yönəlmiş layihələrin həyata keçirilməsinə hazırlığın sübutudur.

Şübhəsiz ki, baş verən hadisələr fonunda Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılması, dəhlizlərin yaradılması məsələsi aktuallaşır. Çünki bu, sonda elə Avrasiya məkanına, Şərqə təsir edir. Axı yolların Azərbaycan, Ermənistan, Türkiyə, Rusiya, İranı birləşdirəcəyi güman edilir. Ticarət başlayacaq. Və həyat səviyyəsi yüksələcək. İnvestisiya gələcək. İqtisadiyyat hərbi-siyasi risklərdən uzaqlaşdıqda kifayət qədər sürətlə inkişaf edir. Təbii ki, Rusiya Cənubi Qafqazda bütün ticarət-iqtisadi əlaqələrin qarşısının alınmasında maraqlıdır. Türkiyə Mərkəzi Asiya bazarlarına çıxa biləcək. Rusiya İran və Hindistanla daha fəal ticarət edəcək. Hamısı çox maraqlıdır. Və bu nə qədər tez baş versə, bir o qədər yaxşıdır. Söhbət Şərq blokundan gedirsə, əsas odur ki, azad ticarət, sahibkarlıq azadlığı, Şərqdən gələn malların hərəkəti, əmək bazarı və kapital bazarıdır.

**- Qaz problemi də var. Aİ son aylarda Rusiya qazından asılılığı azaltmalı olduğunu bəyan edir. Eyni zamanda, o, Azərbaycan da daxil olmaqla tərəfdaşlarla onların tərəfindən "mavi yanacağın" tədarükünün artırılması ilə bağlı danışıqlar apardığını bəyan edir. Bu, Rusiya-Azərbaycan qarşılıqlı əlaqə yolunun və ümumi hazırkı geosiyasi vəziyyətin təhlili baxımından necə qarşılanır?**

- Avropa bazarı o qədər böyükdür ki, Rusiya və Azərbaycan rəqib deyil. Aydındır ki, indi Avropa Rusiya qazından imtina etməyə çalışacaq. Bu siyasəti həyata keçirsə belə, bu o demək deyil ki, Azərbaycan Rusiyanı sıxışdıracaq. Rusiya ilə Azərbaycan arasında rəqabət yoxdur və olmayacaq. Diqqət edilməli olan başqa bir məqam isə odur ki, Türkmənistan qazının ixracının 93 faizi Çinə gedir. Türkmənistanda birdən-birə rəngli inqilab baş versə və hansısa qərbyönlü hakimiyyət hakimiyyətə gəlsə, türkmən qazını Avropaya buraxmağa cəhd edə bilər, amma indiyə qədər Türkmənistanda indiki hakimiyyət var.

**- Bəs Çin? İndi Ukrayna ilə bağlı vəziyyətdə olan Çin Rusiyanın mövqeyini başa düşdüyünü iddia edir, hətta bəzən bunu açıq şəkildə izah etməyə çalışır. Bəs Çin bu şərq birləşməsində hansı yeri tutacaq? Yenə də Çin bu gün ən güclü, aparıcı qütblərdən biridir. Həm Rusiya, həm də Azərbaycanla əməkdaşlıqda maraqlıdır. Bu, ən azı "Bir kəmər, bir yol" layihəsinin timsalında öz əksini tapıb. Bu, İpək Yolunun canlanmasıdır.**

- Rusiya iki bərabər satış bazarının olduğuna inanırdı - Avropa və Çin. Son illərdə Avropa ilə ticarətdə dollardan avroya, Çinlə isə müvafiq olaraq yuana keçdilər. Avropanın ticarət tərəfdaşı kimi rolu aradan qalxdıqda, gələcəkdə Avrasiya İqtisadi İttifaqnın bütün ölkələri üçün Çinin rolu artacaq. Biz görürük ki, İran burada artıq mövcuddur, İranla Aİİ arasında azad ticarət zonası haqqında saziş var. Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatında status almaq niyyətindədir. Yəni çoxlu bağlar da var.

Yeri gəlmişkən, Rusiya ilə Çin arasında rəqabət problemi çox vaxt strateji olur. Rusiya ilə Çin arasında münasibətlər yaxşıdır və Çinin genişlənməsi haqqında söhbətlər mifdir. Qərbdən fərqli olaraq Rusiya və Çin heç kimə necə yaşamağı öyrətmir. Rusiya ilə Çin arasında xarici iqtisadi əlaqələr isə heç bir şəkildə siyasiləşdirilməyib. Üstəlik, bizi (İranla olduğu kimi) Qərbin tətbiq etdiyi sanksiyalar birləşdirir. Çin də bizim kimi Qərbə müxalifdir və buna uyğun olaraq, özünə müttəfiq axtarır. Üstəlik, Rusiya yüksək hərbi texnologiya ölkəsidir və həm Çinə, həm də Türkiyəyə silah-texnika satır. Hökumət isə, o cümlədən Çin də nəzərə alır ki, Rusiyadan müasir silahlar almaq mümkündür və lazımdır. Çin Rusiya üçün kifayət qədər rahat tərəfdaşdır. Digər tərəffdən, bəli, ticarət olunur. 10 il qazın qiymətində alver etdi, amma sonda "Sibirin gücü"nə də razı oldu. Bu, Şərqdir, biz onunla eyni yoldayıq.

***Tərcümə - Elçin Bayramlı***

# Levandovskiyə daha bir müştəri



***Polşa millisinin və "Bavariya"nın futbolçusu Robert Levandovski daha bir klubun maraq dairəsinə düşüb.***

Milli.Az-ın apasport.az saytına istinadən məlumatına görə, "Arsenal" hücumçunun xidmətinə maraqlıdır.

"Bavariya" Robertlə müqaviləni uzatmaq barədə danışıqlar aparmır. Anlaşması 2023-cü ilin yayında başa çatacaq hücumçu şərtlərə yenidən baxılmasını istəyir. Levandovski təklifləri müzakirə etməyə hazır olduğunu da açıqlayıb. "Arsenal" da bu durumdan yararlanmaq fikrindədir.

Qeyd edək ki, polşalı "Mançester Siti" və "Atletiko"nun da maraq dairəsindədir.

# Qaraciyəri təmizləmək üçün bu çayları için

***Qaraciyər qanı təmizləyən, vitamin və mineralları orqanizmin mənimsədiyi hala salan, qırmızı qan hüceyrələrini yeniləyən və ödü sintez edən bir orqandır.***



Qaraciyər bu həyati əhəmiyyətli funksiyaları yerinə yetirərkən bir çox toksik maddələrin təsirinə məruz qalır. Bu səbəblərdən qaraciyəri təmizləməyə ehtiyac duyur.

Uzun illər orqanizmdə "təmizləmə" işi ilə məşğul olan bu orqanın özünün "təmizliyə" ehtiyacı olduqda insanda yorğunluq, halsızlıq, nəfəsində qoxu, dəridə qaşınmalar və iştahsızlıq kimi əlamətlərlə özünü göstərir.

Bu toksinlərin qaraciyərdən təmizlənməsi üçün bəzi bitki çaylarından istifadə etmək olar.

Dəvətikanı dəmləməsi qaraciyəri təmizləyən bitkilər sırasında birinci yerdə durur. Onun tərkibində tapılan silyamarin və silyin adlı kimyəvi maddələr qida səbəbli qaraciyərdə əmələ gələn toksinlərin təmizlənməsində böyük rol oynayır.

Digər qaraciyər üçün faydalı ot zəncirotudur. Zəncirotu dəmləməsi öd axınını sürətləndirərək qaraciyər daxilindəki artıq toksinləri təmizləyir. Bundan başqa zəncirotu dəmləməsi qaraciyərin iltihabi xəstəliklərində də öz faydasını göstərir.

Solmazçiçəyinin dəmləməsi də qaraciyərdaxili öd axarları boşaltmaqla qaraciyər fəaliyyətini yaxşılaşdırır.

Qaraciyəri təmizləmək üçün bəzi tövsiyələr:

- Spirtli içkilərdən imtina edin.
- Yaşıl tərəvəzlərə üstünlük verin.
- Duzu və şəkəri azaldın.
- Təbii qəhvə için.
- Zeytun yağına üstünlük verin.
- Yediklərinizin üstünə limon şirəsi tökün.

Diqqət! Qaraciyərin ciddi xəstəlikləri zamanı ot çaylardan yalnız həkimin təyini ilə istifadə etmək olar.

***Milli.Az***

# Dünyaca məşhur müğənnini məhkəməyə verdilər



Dünyaca məşhur müğənni Dua Lipa plagiat etməkdə ittiham olunur.

Milli.Az olay-a istinadən xəbər verir ki, ifaçını "Artikal Sound System" musiqi qrupu məhkəməyə verib.

Onlar iddia edib ki, Duanın "Levitating" mahnısı qrupun 2017-ci ildə təqdim etdiyi "Live your life"a çox bənzəyir.

Los-Anceles məhkəməsinə müraciət edən qrup bu mahnının original olmadığını, müğənninin plagiat etdiyini bildirib.

Bununla yanaşı, onlar ifaçının şirkəti "Warner Record"u da ittiham edib.

Həmçinin, qrup üzvləri Lipanın sözügedən mahnısından gəlir də tələb ediblər.

# Çürük dişlər XƏRÇƏNG yaradır?

***Çürük dişlər həzm sistemi xəstəliklərinə, hətta xərçəngə səbəb ola bilər. Bu barədə diş həkimi, Rusiya Diş Dərnəyinin fəxri prezidenti Vladimir Sadovski məlumat verib. Həkimin sözlərinə görə, keyfiyyətsiz diş plombu qopanda hətta boğulma və ölümə səbəb ola bilər. Yaxud insan yuxuda olarkən keyfiyyətsiz plombu uda bilər.***



Diş həkimi-terapevt Yevgeniya Boqayeva bu səbəbdən ağızda xoşagəlməz bakteriya ştamlarının meydana çıxdığını izah edib: "Yemək və tüpürcəklərdəki zərərli mikroflora boğaza nüfuz edərək badamcıqların iltihabına, boğaz ağrısına və qırtlaq zədələnməsinə səbəb olur. Çox vaxt insan xəstəliyin səbəbini bilmir və kəskin respirator xəstəliklərə yoluxduğunu düşünür. Karies nəticəsində ağızda meydana gələn bakteriyalar mədə-bağırsaq traktı xəstəliklərinə, bəzi hallarda ürək-damar sisteminin patologiyalarına gətirib çıxara bilər. Mədədən çıxan bakteriyalar qana keçir deyə üreyin işinə mənfi təsir göstərə bilər".

# "Netflix" Pamela Andersonun real həyatından bəhs edən sənədli film çəkir



"Netflix" yayım xidməti Pamela Andersonun həyatından bəhs edən sənədli film çəkir.

Milli.Az oxu.az-a istinadən xəbər verir ki, aktrisanın sözlərinə görə, "Netflix" sənədli filmi onun təvazökar kanadalı "qonşu qızdan" Hollivud ulduzuna necə çevrildiyi barədə bütün həqiqəti danışacaq.

Filmin çəkilişi ilə bağlı qərar ingilis aktrisası Lili Ceyin Pamela Anderson obrazını canlandırdığı "Pam və Tommi" serialının ekranlara çıxmasından sonra verilib. Sənədli filmin prodüseri Pamela Andersonun oğlu Tomas Lidir. O, vəd edib ki, filmdə əsas diqqət anasının "əsl həyat hekayəsi"nə yönələcək.

# Bağırsaq xərçəngindən qoruyan... dadlı DESEPT

***Adi təbii vasitələr, qidalar bizi bir çox təhlükəli xəstəliklərdən və o cümlədən xərçəngdən qoruya bilir. Belə ki, tanınmış rusiyalı həkim-proktoloq, kolorektal cərrah Aleksandr Malışev öz Instagram akkauntunda bağırsaq xərçəngindən qoruyan çox sadə və dadlı vasitəni açıqlayıb. Bu sobada darçınla bişirilmiş almadır.***



Saglamolun.az bildirir ki, həkimin sözlərinə görə, bu desert polifenollarla zəngindir. Polifenollar yoğun bağırsağa çataraq burada faydalı bakteriyaları üçün yaxşı qidalı mühit yaradır, onların artmasına yardım edir. Faydalı bakteriyalar polifenolları bağırsağı xərçəngindən qoruyan xüsusi maddələrə çevirir.

Həmçinin həkim bildirib ki, sobada bişirilmiş alma orqanizm tərəfindən daha asan və yaxşı mənimsənilir və onun tərkibində olan polifenollar təzə alma ilə müqayisədə daha çoxdur.

Bu dadlı və faydalı deserti hazırlamaq üçün almanın yuxarı hissəsini kəsin, ortasını oyun, şəkər tozu ilə qarışdırılmış darçını (zövqə görə) səpin, sobada 10-15 dəqiqə bişirilir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ
CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL
YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**